## Komitə sədri tikinti bumu ilə bağlı xəbərdarlıq edib



**Bakının Baş Planı şəhərin zonalaşdırılması, müvafiq məhdudiyyətlərin tətbiq edildiyi sənəddir.**

Bununla yanaşı, sənəddə bir çox yeni şəhərsalma yanaşmalarında Bakıya uyğun təkliflər veriləcək.

Bunu jurnalistlərə açıqlamasında Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib.

Komitə sədri Bakıda gedən tikinti bumu ilə bağlı xəbərdarlıq edib: "Tarixi mərkəzlərdə gedən tikintilərdə tarixilik qorunmalıdır. Əsrlərlə formalaşmış tarixi şəhərsalma mühiti qorunmalıdır. Həmin ərazilərdə aparılacaq yeni işlər həmin mühitə uyğun aparılmalıdır. Bu, istər bərpa işlərində, istərsə də yeni bina tikintisində qorunmalıdır".



## Azad edilən ərazilərdə daha 271 hektar ərazi minadan təmizlənib

**Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə daha 321 hektar ərazini minadan təmizləyib.**

ANAMA-dan verilən məlumata görə, dekabrın 5-dən 10-dək Tərtər, Ağdam, Xocavənd, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 3 mina və 47 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. 271 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.


❒ № 227 (5748), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 dekabr 2022-ci il (çərşənbə axşamı)




## Laçın dəhlizi üzərində Azərbaycan bayrağı qaldırılıb

**Şuşada aksiya keçirən etirazçılar Laçın dəhlizi üzərində Azərbaycan bayrağını qaldırıblar.**

Bu barədə Trend-in Şuşaya ezam olunmuş əməkdaşı məlumat verir.

"Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan bayrağı!", - deyə etirazçılar şüar səsləndiriblər.

Qeyd edək ki, Azərbaycanın qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələri Rusiya sülhməramlılarının Şuşa şəhəri yaxınlığındakı postu yanında etiraz aksiyası keçirirlər. Onlar azərbaycanlı mütəxəssislərin Azərbaycan yataqlarının qanunsuz istismarı ilə bağlı monitorinq aparmaq üçün əraziyə buraxılmamasına etiraz edirlər.



## Prezidentlə xanımı Heydər Əliyevin məzarını ziyarət etdi

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 19 il ötür.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gedərək Ümummilli liderin məzarını ziyarət ediblər.

Prezident Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın Dövlət Himni səsləndirilib. Dövlət başçısı və birinci xanım Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

## Ermənistan hələ də öhdəlikləri yerinə yetirmir

Qanunsuz silahlı birləşmələr Azərbaycan ərazisindən tam çıxarılmayıb




**"Ermənistan normallaşmanın hər üç əsas istiqaməti üzrə öhdəliklərini yerinə yetirmir".** Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqı Şərq Tərəfdaşlığı Xarici işlər nazirlərinin görüşündə bildirib. Nazir deyib ki, ikitərəfli danışıqlarda dinamizmin artmasına baxmayaraq, əldə edilən irəliləyiş kifayət qədər məhdud olaraq qalır. Çünki Ermənistan keçmiş imitasiya təcrübəsini davam etdirir...

(səh.2)

# Rus sülhməramlılarına qarşı etirazlar başladı

## Mülki əhali Xankəndiyə, Xocalıya, Xocavəndə dinc yürüş edə bilər



**Azərbaycanın Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı ilkin monitorinqi növbəti təxribat nəticəsində baş tutmayıb.**

Sülhməramlı kontigentin komandanlığı ilə Azərbaycan tərəfi arasında monitorinqə başlamaq barədə razılıq əldə olunsa da, sülhməramlılarla Qarabağdakı qanunsuz erməni dəstələrinin birgə təxribatı buna imkan verməyib.

Heyət Rusiya sülhməramlılarının müşayiəti ilə faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının yerləşdiyi ərazilərə gəlsələr də, hər iki istiqamətdə təxribatla üzləşiblər. Heyətin Rusiya sülhməramlılarının gözü qarşısında yataqların yerləşdiyi ərazilərə girişinə maneə törədilib. Onlar əvvəlcədən bura gətirilmiş və özünü qondarma rejimin təmsilçisi kimi təqdim edən Ruben Vardanyanın başçılıq etdiyi yerli ermənilərlə qarşılaşıblar. Azərbaycanın rəsmi şəxslərdən ibarət heyəti Ruben Vardanyanla təmasa keçməkdən imtina edib və Şuşa şəhərinə qayıdıb.

(səh.4)

# Hər təhlükəyə hazır olmalıyıq

## İranda proseslər nəzarətdən çıxsa, Azərbaycan qaçqın axını ilə üzləşəcək



**Almaniyadan sığınacaq istəyən İran vətəndaşlarının sayı artıb.**

Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarədən (BAMF) "Report"un Avropa bürosunun sorğusuna cavab olaraq bildirib ki, bu ilin yanvar-noyabr ayları arasında federal idarəyə İran vətəndaşları tərəfindən ümumilikdə 6 392 sığınacaq ərizəsi daxil olub. Onlardan 5 447-si ilk dəfə, 945-i isə ikinci dəfə üçün edilən müraciətlərdir.

(səh.2)



## 6500-ə yaxın abonent qaranlıqdadır

Bəzi rayonların ərazisində elektrik enerjisi verilişində fasilə yaranıb

**Respublika ərazisində qarlı və qeyri-sabit hava şəraiti səbəbindən Yardımlı, Qax, Şamaxı, Daşkəsən və Sabirabad rayonları ərazisində bəzi kəndlərin elektrik enerjisi verilişində fasilə yaranıb.**

"Azərişıq" ASC-dən verilən məlumata görə, ASC-nin Qəza xidmətinin əməkdaşları dərhal həmin ərazilərə cəlb edilib, abonentlərin elektrik enerjisi ilə təchiz olunmaları üçün" ASC-nin bütün imkanları səfərbər olunub.

"Kəskin hava şəraiti işin intensiv aparılmasına mane olsa da, lakin 6500-ə yaxın abonentin elektrik enerjisi verilişinin bərpası istiqamətində ciddi işlər görülür", - məlumatda deyilir.

## Kəklikotu çayından 5 nəfər zəhərlənib

Ağa Salamov: "Əhaliyə məsləhətim budur ki, kəklikotu və digər müalicəvi bitkiləri tanıdıqları adamlardan alsınlar"



**Qax rayonunda bir ailənin beş üzvü qidadan zəhərlənib.**

Hadisə şəhər ərazisində qeydə alınıb. Rayon sakinləri - 64 yaşlı Xanım Xəlilova, onun oğlu 40 yaşlı Məhəmməd Xəlilov və gəlini Günay Mahmudova, eləcə də 2 azyaşlı qida zəhərlənməsi diaqnozu ilə Qax Rayon Mərkəzi Xəstəxanasına müraciət edib. Onların kəklikotu çayı içdikdən sonra vəziyyətlərinin pisləşdiyi bildirilib. İlkin ehtimala görə, hadisəyə kəklikotunun içərisində zəhərli alaq otlarının da qəbul edilməsi səbəb olub.

(səh.3)

## 1 nəfər vəfat edib

Son sutkada 9 nəfər koronavirusa yoluxdu



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 9 yeni yoluxma faktı qeydə alınıb, 13 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 824 879 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 814 524 nəfər müalicə olunaraq sağalıb, 9 987 nəfər vəfat edib, aktiv xəstə sayı 368 nəfərdir.

*Ölkədə son sutka ərzində 682, hazırkı dövrədək isə 7 395 267 test aparılıb. Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə vaksin vurulmayıb.*



## Bəxtiyar Paşa "komando" sahəsində ən peşəkar kadrdır

Onun təyinatı və fəaliyyəti digər kabinet generallarını da otaqdan çıxaracaq

(səh.3)



## Azərbaycan xarici siyasətindəki prioritetləri yeniləyib

Türk Dövlətləri Təşkilatının gücə çevrilməsi Bakıya Tehranın yerində otuzdurulması üçün xeyli stimullaşdırıcı ideyalar verir

(səh.4)



# Putin liderlərin görüşünü təşkil etməyə çalışır

## Paşinyan isə təmaslar üçün Moskvanı yox, Tbilisini daha uyğun məkan hesab edir

**Dünən Rusiya dövlət başçısı Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr, 11 yanvar və 26 noyabr, həmçinin bu il 31 oktyabr tarixli razılaşmalarının reallaşdırılmasının bəzi praktik aspektləri, o cümlədən Cənubi Qafqazda iqtisadi və logistik əlaqələrin bərpası planları müzakirə edilib.**

Dövlət başçıları gələcək təmaslar barədə də fikir mübadiləsi aparıblar. Xatırladaq ki, Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycan, Gürcüstan və Ermənistanın regional dialoq formatının qurulmasını təklif edib. Baş nazir bildirib ki, İrəvan yeni olmayan bu ideyanı hər zaman dəstəkləyib. Paşinyan həmçinin vurğulayıb ki, sülhün bərqərar olması üçün regional münasibətlərin məzmunu və keyfiyyəti dəyişməlidir: "Bunun üçün sadə, amma vacib məsələlərdən başlamaq lazımdır".

**Kreml-Bakı arasında təmasları və Paşinyanın görüş təklifini "Şərq"ə dəyərləndirən Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə deyib ki, Putin Azərbaycan və Ermənistan liderlərinin növbəti görüşünü təşkil etməyə çalışır.** Ekspert Rusiya rəhbərinin zənginin sülhməramlı qüvvələrlə bağlı Moskvaya nota verilməsi, Laçın yolunda yumşaq gücdən istifadə edilməsi fonunda baş verməsinə diqqət çəkib: "Putin telefon danışığında ənənəvi olaraq əldə olunan üçtərəfli razılaşmaların yerinə yetirilməsinin vacibliyindən danışıb. Halbuki Rusiya özü razılaşmaların icrasını əngəlləyən əsas tərəfdir. Moskva Azərbaycan və Ermənistan liderlərinin növbəti görüşünün keçirilməsində maraqlıdır. Məhz Putinin Prezident İlham Əliyevlə telefon danışığında Nikol Paşinyanla görüşün keçirilməsinin təklif edilməsi istisna deyil. Rusiya təşəbbüsün Vaşinqtonun əlinə keçməməsi üçün görüş təyin edir. Əlbəttə, rəsmi Bakı görüşlərin müsbət sonluqla nəticələnməsində maraqlıdır. Dekabrın 7-də keçirilməsi nəzərdə tutulan Brüssel görüşü məhz müsbət nəticəyə ümid olmadığından təxirə düşdü. İndi Nikol Paşinyan yeni görüş üçün Tbilisini uyğun görür. Əslində, Tbilisidə görüş Azərbaycanın bir neçə ay öncə irəli sürdüyü təklifdir. Vaşinqton da bu təklifi dəstəkləyib. Tbilisi görüşü Moskva və Brüsseldən fərqli olaraq daha müsbət atmosferdə keçə bilər. Görünür, ABŞ Paşinyana ciddi təzyiq göstərdiyi üçün baş nazir Moskva yox, Tbilisi görüşündə maraqlı olduğunu deyir. Putinin "əl-ayağa düşməsinin" səbəbi budur".

**İsmayıl Qocayev**

# Aİ İrana qarşı çox sərt sanksiyalar tətbiq edəcək

## Jozep Borrel: "İranlı qadınların və dinc etirazların dəstəklənməsi üçün istənilən tədbiri görəcəyik"

**Avropa İttifaqı etirazlarla bağlı vəziyyətə və Rusiyaya hərbi dəstəyə görə İrana qarşı çox sərt sanksiyalar tətbiq edəcək.**

**Bunu Avropa İttifaqının xarici siyasət xidmətinin rəhbəri Jozep Borrel Aİ Şurasının xarici işlər nazirləri səviyyəsində iclası ərəfəsində deyib.**



"İrana qarşı çox sərt sanksiyalar tətbiq edəcəyik. İranlı qadınların və dinc etirazların dəstəklənməsi üçün istənilən tədbiri görəcəyik, - deyə Borrel bildirib. Onun sözlərinə görə, Aİ İranda iki nəfərin edam olunmasını qınayır və bunu Tehranın nəzərinə çatdırıb.

Bu gün təsdiqlənəcək sanksiyaların, həmçinin İranın Rusiyaya hərbi dəstəyi ilə bağlı olduğunu qeyd edən Jozep Borrel deyib: "Mən cümə günü iranlı nazirlə danışdım. İran tərəfi təsdiqləməkdə davam edir ki, Rusiyaya pilotsuz uçuş aparatları vermir və raket tədarük etmək niyyətində deyil. Görəcəyik".

*İlkin məlumata görə, Aİ bir sıra İran vətəndaşlarını və təşkilatlarını qara siyahıya salmaq niyyətindədir.*

# Hər təhlükəyə hazır olmalıyıq

## İranda proseslər nəzarətdən çıxsa, Azərbaycan qaçqın axını ilə üzləşəcək

**Almaniyadan sığınacaq istəyən İran vətəndaşlarının sayı artıb.**

**Almaniya Miqrasiya və Qaçqınlar üzrə Federal İdarədən (BAMF) "Report"un Avropa bürosunun sorğusuna cavab olaraq bildirib ki, bu ilin yanvar-noyabr ayları arasında federal idarəyə İran vətəndaşları tərəfindən ümumilikdə 6 392 sığınacaq ərizəsi daxil olub.**



"Bir məsələyə diqqət etmək lazımdır ki, miqrantlardan istifadə edib, ölkəyə terrorçular da daxil ola bilərlər"

Onlardan 5 447-si ilk dəfə, 945-i isə ikinci dəfə üçün edilən müraciətlərdir. Federal İdarədən verilən məlumatda qeyd olunur ki, İranda sentyabr ayında başlayan kütləvi nümayişlərdən sonra Almaniyaya gələrək sığınacaq istəyən İran vətəndaşlarının sayı əvvəlki ilin eyni ayı ilə müqayisədə iki dəfə çoxdur.

İran vətəndaşları tərəfindən federal idarəyə bu ilin sentyabr ayında 613, oktyabrda 892, noyabr ayında isə 1039 nəfər qaçqın statusu üçün müraciət edib.

BAMF-nin açıqlamasında qeyd olunur ki, bu ilin yanvar-noyabr aylarında federal idarəyə sığınacaq üçün müraciət edənlərin ümumi sayı 214 253 nəfərdir.

Maraqlıdır, İrandakı etiraz dalğası inqilabla nəticələnsə, qonşu ölkədən Azərbaycana miqrant axını olacaq?

**Politoloq Azər Rəşidoğlunun "Şərq"ə açıqlamasına görə, İranda açıq xaos və vətəndaş savaşı baş verərsə, bu, Bakının maraqlarına cavab verməyəcək. Belə ki, proseslər Azərbaycan sərhədlərinin dibində cərəyan edir və bizim üçün də müəyyən mənada narahatlıq doğura bilər:** "Unutmayaq ki, İranda on milyonlarla soydaşımız yaşayır. Proses nəzarətdən çıxarsa, Azərbaycana qaçqın axını başlaya bilər. Vaxtilə İrandan Azərbaycana çoxsaylı qaçqın keçdi. Onlar müxtəlif ərazilərdə evlər aldılar. Minlərlə İran vətəndaşı Bakıda ev və mülk sahibinə çevrildi. Hər kəs özünü gələcək təhlükədən sığortalamaq istəyirdi və ən asan başa gələn metod Bakıda ev almaq idi. Bu dəfə Azərbaycana daha çox sayda qaçqın axın edə bilər. İraqdakı, Suriyadakı toqquşmalardan sonra yaranan qaçqın problemi də dediklərimizi sübut edir. Burada əsas məqam odur ki, Azərbaycanda miqrantların qəbulu və yerləşdirilməsi üzrə qanunverici baza yoxdur. Söhbət yalnız miqrantların qəbul edilməsindən getmir. Zəruri xidmətlər və müxtəlif təminatlar da həllini tapmalıdır. Qaçqınların Avropaya can atmasının səbəbləri budur ki, onların təminatı Avropada dövlət siyasətinin tərkib hissəsidir. Diqqət etmisinizsə, miqrantların böyük əksəriyyəti məhz Almaniyaya can atır. Çünki orada bu qanunlar daha loyaldır. Bu baxımdan hesab edirəm ki, Azərbaycana ciddi miqrant axını baş verməyəcək, lakin kiçik bir ölkəyə on minlərlə qaçqın gəlsə belə, bu, kifayət qədər problemə səbəb olacaq. Bir məsələyə diqqət etmək lazımdır ki, miqrantlardan istifadə edib, ölkəyə terrorçular da daxil ola bilərlər. Bu da dövlətin müvafiq orqanlarının işidir ki, onlara nəzarət etsinlər. Əlavə problem bizə lazım deyil. Bu baxımdan Bakı İrandakı proseslərin dinc məcrəya düşməsində maraqlıdır. Lakin Tehran rejimi Bakıya qarşı təxribatlardan əl çəkmir və biz mollakratiyanın nazına dözmək fikrində də deyilik".

**Şeymən**

# Ermənistan hələ də öhdəlikləri yerinə yetirmir

## Qanunsuz silahlı birləşmələr Azərbaycan ərazisindən tam çıxarılmayıb



**"Ermənistan normallaşmanın hər üç əsas istiqaməti üzrə öhdəliklərini yerinə yetirmir". Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqı Şərq Tərəfdaşlığı Xarici işlər nazirlərinin görüşündə bildirib. Nazir deyib ki, ikitərəfli danışıqlarda dinamizmin artmasına baxmayaraq, əldə edilən irəliləyiş kifayət qədər məhdud olaraq qalır. Çünki Ermənistan keçmiş imitasiya təcrübəsini davam etdirir:**

"Ermənistan dövlətlərarası normallaşmanın hər üç əsas istiqaməti, yəni sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması üzrə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməyə davam edir. Ermənistan hələ də öz qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazilərindən tam çıxarmayıb. Eyni şəkildə, Ermənistan kommunikasiya əlaqələrinin bərpasını süni şəkildə gecikdirir, o cümlədən Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin olunmasından imtina edir. Bunun əvəzinə, sentyabrın ortalarında delimitasiya olunmamış dövlət sərhədi boyunca təxribatdan sonra Ermənistan normallaşma gündəliyini pozmaq üçün Azərbaycana qarşı qarayaxma kampaniyasına başladı. Ermənistanın revanşist davranışının təşviqində müəyyən üçüncü tərəflərin rolu da ciddi narahatlıq doğurur, çünki bu, Ermənistanı hərbi təxribatları və döyüş ritorikasını gücləndirməyə sövq edir".

**"Ermənistanla danışıqların növbəti mərhələsi yaxın həftələrdə baş tutacaq"**

**Ceyhun Bayramov bildirib ki, Ermənistanla danışıqların növbəti mərhələsi yaxın həftələrdə baş tutacaq:** "Avqustun 31-də keçirilmiş Brüssel görüşünün mühüm nəticələrindən biri olaraq imzalanacaq sülh müqaviləsinin mətni ilə bağlı ikitərəfli danışıqlar başladı. Noyabrın 7-də Vaşinqtonda Ermənistan xarici işlər naziri ilə görüşdən sonra Azərbaycan Ermənistana yenidən baxılmış təklifləri təqdim etdi. Danışıqların növbəti mərhələsinin yaxın həftələrdə baş tutacağı gözlənilir. Bu xüsusda, Azərbaycanın yanaşması aydın və ardıcıl olmaqla yanaşı beynəlxalq hüquqa əsaslanır. İmzalanacaq sülh müqaviləsi Azərbaycan və Ermənistanın iki bərabər suveren dövlət kimi hüquqlarını təmin edəcək və dövlətlərarası münasibətlər ilə bağlı ümumi maraq və ya narahatlıq doğuran bütün məsələlərin həlli üçün zəmin yaradacaq".

**"Azərbaycan Respublikasının Konstitusiyası mühüm hüquqi baza təmin edir"**

**XİN rəhbəri Azərbaycan hökuməti ilə yerli etnik erməni sakinlər arasında dialoqdan danışıb:** "Azərbaycan həmçinin postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərdə yaşayan erməni əsilli vətəndaşların onların bütün Azərbaycan vətəndaşları ilə eyni hüquq və azadlıqlara sahib olmasına zəmanət verməklə yenidən cəmiyyətimizə inteqrasiya etmək niyyətindədir. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyası mühüm hüquqi baza təmin edir. Azərbaycan hökuməti ilə yerli etnik erməni sakinlər arasında dialoqun və təmasların genişləndirilməsi dinc birgə yaşayışın təmin edilməsinə istiqamətlənib, prosesin təşviq edilməsi və dəstəklənməsinə ehtiyac var".

**"Aİ və Azərbaycan arasında danışıqların növbəti raundu keçiriləcək"**

**Nazir deyib ki, Aİ ilə Azərbaycan arasında yeni ikitərəfli saziş üzrə danışıqlar davam edir:** "Bölgədəki nəqliyyat və kommunikasiya əlaqələri kontekstində Transxəzər Şərq-Qərb Orta Dəhlizin geniş iqtisadi və investisiya imkanlarını və Azərbaycandan keçən tranzit axınlarının 2022-ci ildə 70 faiz artdığını qeyd etmək istərdim. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində formalaşan nəqliyyat qovşağı, o cümlədən Zəngəzur dəhlizi regional sülhün və dayanıqlığın təmin olunmasında müsbət rol oynayacaq, bölgədə ticarətin inkişafına töhfə verəcək".

**"Azərbaycandan Avropaya "yaşıl enerji" ixracı üzrə çalışırıq"**

**Nazir qeyd edib ki, Azərbaycandan Avropaya "yaşıl enerji" ixracı üzrə çalışırıq:** "İlk növbədə, bugünkü nazirlər səviyyəsində görüşün təşkilinə görə öz minnətdarlığımı bildirirəm. Bu görüş Şərq Tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək fəaliyyəti ilə bağlı açıq və səmimi fikir mübadiləsi üçün faydalı fürsətdir". Nazirin sözlərinə görə, Şərq Tərəfdaşlığı iştirak edən bütün tərəflərin ortaq mənsubiyyəti və məsuliyyətinə əsaslanır: "Bu fakt, sözügedən təşəbbüsün gələcək inkişafı ilə bağlı işimizi bundan sonra da istiqamətləndirməlidir. Azərbaycan Şərq Tərəfdaşlığını Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafı üçün qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq, ümumi maraq və faydalara əsaslanan mühüm yardımçı mexanizm kimi görməkdə davam edir. Aİ bizim ən böyük ticarət və investisiya tərəfdaşımızdır. Aİ ilə Azərbaycan arasında 2022-ci ilin iyul ayında imzalanmış Anlaşma Memorandumu təbii qazın sabit və əlverişli şəraitdə nəqli, həm də Avropaya potensial "yaşıl enerji" ixracı baxımından əhəmiyyət kəsb edir. Biz həmçinin Azərbaycandan Avropaya "yaşıl enerji" ixracı üzrə üzrə tərəfdaşlarımızla çalışırıq və yaxın günlərdə nəzərəçarpacaq addım gözləyirik".

**"Tranzit axınları 2022-ci ildə 70 faiz artıb"**

**Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan və Aİ, həmçinin Aİ-nin Azərbaycanda İqtisadi və İnvestisiya Planının həyata keçirilməsi üzərində işləyir və bu, layihə yönümlü əməkdaşlığın yaxşı nümunəsidir:** "Yüksək səviyyəli birgə işçi qrupunun ilk iclası ötən həftə Bakıda keçirilib. Aİ ilə Azərbaycan arasında yeni ikitərəfli saziş üzrə danışıqlar davam edir və bu gün nümayəndə heyətləri arasında danışıqların növbəti raundu keçiriləcək. Bölgədəki nəqliyyat və kommunikasiya əlaqələri kontekstində Transxəzər Şərq-Qərb Orta Dəhlizin geniş iqtisadi və investisiya imkanlarını və Azərbaycandan keçən tranzit axınlarının 2022-ci ildə 70 faiz artdığını qeyd etmək istərdim. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində formalaşan nəqliyyat qovşağı, o cümlədən Zəngəzur dəhlizi regional sülhün və dayanıqlığın təmin olunmasında müsbət rol oynayacaq, bölgədə ticarətin inkişafına töhfə verəcək".

**İsmayıl**



## Bakıda NATO ekspertləri ilə görüş keçirilib

**NATO-nun Müdafiə təhsilinin genişlənməsi proqramı (DEEP) çərçivəsində Azərbaycan üzrə koordinatorlar və NATO-nun müxtəlif təhsil ekspertləri ilə Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetində işçi görüşü keçirilir.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı hərbi təhsil sisteminin və əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, bu sahədə qazanılan təcrübə üzrə müxtəlif brifinqlər təqdim olunub.

NATO ilə əməkdaşlıq çərçivəsində təşkil olunan görüşlərin hər iki tərəf üçün səmərəli olduğu bildirilib və növbəti il üçün fəaliyyət planının istiqamətləri müəyyənləşdirilib.

İşçi görüşləri dekabrın 16-dək davam edəcək.

## Zelenski: "Ukraynada müharibə Putin öləndə bitəcək"

**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya ilə müharibədən sonrakı vəziyyət haqqında danışıb. APA xəbər verir ki, bu barədə Zelenski "Netflix"də David Letterman ilə "Növbəti qonağımın təqdimata ehtiyacı yoxdur" adlı xüsusi proqrama müsahibə verib.**



O bildirib ki, qələbədən sonra gələcəyini hələ düşünməyibni, lakin o vaxta qədər vəzifəsində qalacağını bildirib.

"Qələbəmizə qədər mən mütləq prezident olacağam. Sonrasını heç düşünmürəm. Hələ düşünmürəm, hazır deyiləm. Açığını deyim, David, mən dənizə getmək istəyirəm. Müharibədə qələbə qazanandan sonra dəniz və pivə içmək istəyirəm", - deyə Zelenski bildirib.

*Zelenski bildirib ki, Ukraynada müharibə Putin öləndə bitəcək.*

# Zaman daralır

## Bakı hələ ki ən yumşaq xəbərdarlığını etdi



**“Laçın-Şuşa yolunda keçirilən etiraz aksiyaları dinc xarakterlidir və heç bir gərginlik ehtiva etmir”. Bu sözləri ”Şərq”ə siyasi şərhçi Turan Rzayev deyib. Ekspert bildirib ki, azərbaycanlıların etiraz aksiyaları keçirməsinə başlıca səbəb sülhməramlıların müvəqqəti məsuliyyət zonasında yarıtmaz fəaliyyətidir:**

”Məsələ ondadır ki, Azərbaycan ərazilərinin 30 il ərzində Ermənistan tərəfindən işğal altında olduğu dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ölkəmizə qarşı ekoloji terror törədilib, bir çox faydalı qazıntı yataqları qanunsuz şəkildə istismar edilib. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə uzun illər qanunsuz istismar və talan edilən yataqların bir çoxunda ekoloji vəziyyət nəzarət altına alınıb. Lakin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində olan Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında qeyri-qanuni istismar davam etməkdədir. Rəsmi Bakı mövcud vəziyyətə etiraz olaraq 3 dekabr tarixində əməkdaşlarını monitorinq üçün Xankəndi ilə Şuşa şəhəri arasındakı Rusiya sülhməramlı qüvvələrinin nəzarət məntəqəsinə göndərdi. Tərəflər arasında müzakirələr 3 saat davam etsə də, nəticə əldə edilmədi. Dekabrın 3-də keçirilmiş müzakirələrin davamı olaraq, dekabrın 7-də Azərbaycanın monitorinq heyəti Xocalıda Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə görüş keçirdi. Görüşdə əldə olunmuş razılığa uyğun olaraq, 10 dekabr tarixində faydalı qazıntıların qanunsuz istismar olunduğu iki əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneə törədildi”.

İlin sonunadək erməni silahlılar zərərsizləşdirilməsə, daha ciddi addımlar atıla bilər

**T.Rzayev bəyan edib ki, rəsmi Bakı nə torpaqlarımızın istismarına, nə də Rusiya sülhməramlılarının bu qanunsuz əmələ göz yummasına icazə verəcək:** ”Bunun üçün Azərbaycan tərəfi iki ciddi addım atdı. Birincisi, 10 dekabr tarixində faydalı qazıntıların qanunsuz istismar olunduğu əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə maneə törədilməsinə etiraz olaraq Azərbaycan Xarici İşlər Nazirliyi Rusiyaya nota təqdim etdi. İkincisi, Laçın-Şuşa yolunun bir hissəsində azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatları etiraz aksiyaları təşkil etdi. Bu, rəsmi Bakının son yumşaq xəbərdarlığıdır. İlin sonlarınadək erməni silahlılarının terror təxribatları və qanunsuz fəaliyyət sonlanmasa, rəsmi Bakı daha ciddi addımlar ata bilər. Söhbət ”Qisas” əməliyyatı və ya bu ilin mart ayında təşkil edilən Fərrux əməliyyatına bənzər növbəti prosesin icrasından gedir. Mövcud vəziyyət dəyişməyəcəyi təqdirdə 2023-cü ildə də bənzər formada hərbi əməliyyatların keçirilməsi mümkündür”.

**İsmayıl**




# Əvəzolunmaz lider

## Deputat: “Azərbaycan Ulu Öndər üçün hər şey demək idi, müqəddəsdi”

**12 dekabr Azərbaycanın mərhum Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyevin anım günüdür. Ulu Öndərin vəfatından 19 il ötür. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub.**

1944-cü ildən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyib, general-mayor rütbəsinə qədər yüksəlib. Ulu Öndər 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib.

O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

Ulu Öndər 1998-ci il oktyabrın 10-da keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. 2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş H.Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edərək namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

*Xatırladaq ki, uzun müddət ABŞ-nin Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də vəfat edib.*

*Ulu Öndərin ölkəmizin siyasi tarixində əvəzolunmaz bir lider olduğunu deyən millət vəkili Sahib Alıyev ”Şərq”ə vurğulayıb ki, Heydər Əliyevin Azərbaycandan qat-qat böyük dövlətlərə rəhbərlik edə biləcək bir lider olduğunu çoxları deyib:* ”Amma bunu deyənlər görünür, Ulu Öndərin ”Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir, Azərbaycan mənim həyatımdır” sözlərini unudurdular. Unudurdular ki, Azərbaycan onun üçün hər şey demək idi, müqəddəsdi. Müqəddəs saydığın isə ölçüsüz, çəkisiz şəkildə digər hər nə varsa, hamısından yüksəkdə olur.

Bir də haqqında danışılan Azərbaycanın aysberqin görünən tərəfi olduğu, alt qatda daha böyük bir məmləkətin gizləndiyi də yəqin diqqətdən qaçılırdı. Əminəm ki, Heydər Əliyev siyasətinin bugünkü kimi uğurlu bir şəkildə davam etdirilməsi nəticəsində Azərbaycanın indi bu ad səslənərkən göz önünə gələndən nə qədər böyük olduğunu hər kəs görəcək.

Onda Ulu Öndərimizin ruhu daha da şad olacaq. Onu sevgi və sayğıyla anırıq”.

**Nihat Müzəffər**

# Bəxtiyar Paşa "komando" sahəsində ən peşəkar kadrdır

## Onun təyinatı və fəaliyyəti digər kabinet generallarını da otaqdan çıxaracaq





**Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı Xüsusi Komandanlıq Qrupunun komandanı general-polkovnik Bəxtiyar Ersay Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənovun müşaviri təyin edilib. O, Müdafiə Nazirliyinin dekarın 10-da keçirilən Kollegiya iclasında məhz Zakir Həsənovun müşaviri kimi çıxış edib.**

Bəxtiyar Paşa Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən, aparılan islahatlar nəticəsində əldə edilən yeni nailiyyətlərdən danışıb. İclasda nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə, xidmət və müstəqil şöbə rəisləri, videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri iştirak ediblər.

**Mühüm təyinatla bağlı ”Şərq”ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, müstəqil Azərbaycanın ordusunun formalaşmağa başladığı ilk gündən bu yana Türkiyənin hərbi müstəvidə yardımları əvəzedilməz olub. Professorun sözlərinə görə, 1990-cı illərin əvvəllərində dəfələrlə Türkiyədən hərbi mütəxəssislər, zabit heyəti ölkəmizə dəvət olunub:** ”Təbii ki, Azərbaycan Ordusu hazırda güclüdür, ancaq qardaş Türkiyənin hərbi təcrübəsinə böyük ehtiyacımız var. Nəzərə alaq ki, bizim ordumuz sovet sistemində formalaşmışdı. Hərbçilərimiz, zabitlərimiz də sovet məktəbinin yetirmələri idi. Reallıq odur ki, sovet dönəmində yetişmiş yüksək rütbəli zabitlər NATO səviyyəsində müasir tələblərə cavab verən ordu formalaşdıra bilmədilər. O baxımdan bu iş mütəxəssislərə həvalə olunmalı idi. NATO-nun ən güclü ikinci ordusu olan qardaş Türkiyənin bu sahədə bizimlə sıx əməkdaşlığı çox vacibdir. Ersay paşanın seçilməsi də əhəmiyyətlidir. Çünki məhz həmin paşa Azərbaycan Ordusunu daha yaxşı tanıyır, problemləri, çatışmazlıqları bilir. Ersay paşa 44 günlük müharibə zamanı digər türk qardaşlarımız kimi yanımızda olub. Onun hərbi təcrübələrindən, bilik və bacarığından Azərbaycan çox yararlanıb. Belə bir şəxsin müdafiə nazirinin müşaviri təyin olunması Prezident, Ali Baş Komandan İlham Əliyevin növbəti uğurlu addımı və uzaqgörənliyidir”.

**C.Nuriyev vurğulayıb ki, müzəffər ordu daha mütərəqqi və modern olmalıdır:** ”Adətən mütəxəssislər başqa ölkəyə müvəqqəti dəvət alırlar və müəyyən müddət öz işlərini görürlər. Azərbaycan üçün önəmli odur ki, ölkəmizə çox peşəkar bir hərbçini dəvət etməklə yanaşı, ona daimi vəzifə də verilib. Çox uğurlu təyinatdır. Şuşa bəyannaməsindən sonra Azərbaycan və Türkiyə silahlı qüvvələri onsuz da vahid ordu sayılır. Hazırda iki ölkənin inteqrasiya prosesi gedir”.

**Ekspert diqqətə çatdırıb ki, Azərbaycan Ordusunda xüsusi dəstələr, ”komandolar” hazırlanır:** ”Bu sahədə qardaş Türkiyənin təcrübəsi əvəzolunmazdır. Bəxtiyar paşa ”komando” sahəsində ən uğurlu, peşəkar və həm də gənc kadrlardan sayılır. Onun tərcümeyi-halını oxuduqdan sonra qürur duydum ki, Ordumuza belə peşəkar bir hərbçi cəlb olunub. Əməliyyatın qurulması, hadisələrin düzgün proqnozlaşdırılması, müasir silahların tətbiq edilməsi, təchizat və təminat olduqca önəmlidir. Bəxtiyar Ersay bu sahələrdə barmaqla sayılan generallardandır. Bu sahələrdə təcrübəmiz azdır. Ümid edirik, Bəxtiyar Ersayın təyinatı və fəaliyyəti digər kabinet generallarını da otaqdan çıxaracaq. Azərbaycan mobil ordu qurur”.

**İsmayıl Qocayev**





# Kəklikotu çayından 5 nəfər zəhərlənib

## Ağa Salamov: “Əhaliyə məsləhətim budur ki, kəklikotu və digər müalicəvi bitkiləri tanıdıqları adamlardan alsınlar”

**Qax rayonunda bir ailənin beş üzvü qidadan zəhərlənib. ”Report”un Şimal-qərb bürosunun məlumatına görə, hadisə şəhər ərazisində qeydə alınıb. Rayon sakinləri - 64 yaşlı Xanım Xəlilova, onun oğlu 40 yaşlı Məhəmməd Xəlilov və gəlini Günay Mahmudova, eləcə də 2 azyaşlı qida zəhərlənməsi diaqnozu ilə Qax Rayon Mərkəzi Xəstəxanasına müraciət edib.**

Onların kəklikotu çayı içdikdən sonra vəziyyətlərinin pisləşdiyi bildirilib. İlkin ehtimala görə, hadisəyə kəklikotunun içərisində zəhərli alaq otlarının da qəbul edilməsi səbəb olub. Daxili İşlər Nazirliyi Mətbuat xidmətinin Şəki regional qrupu faktı təsdiq edilib. Qeyd olunub ki, 5 nəfərin qidadan zəhərlənməsi ilə bağlı rayon polis şöbəsinə məlumat daxil olub. Vurğulanıb ki, faktla bağlı ilkin araşdırma aparıldıqdan sonra toplanmış materiallar rayon prokurorluğuna göndəriləcək. TƏBİB-in məlumatında qeyd olunur ki, dekabrın 11-i saat 23:26 radələrində 2-si azyaşlı olmaqla 5 nəfər zəhərlənmə səbəbi ilə Qax Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onların hər birinə zəruri tibbi xidmətlər göstərilib, saat 02:30 radələrində isə ambulator müalicə üçün evə buraxılıblar. Eyni zamanda həmin şəxslər bu gün yenidən müayinə üçün tibb müəssisəsinə dəvət olunublar.

**Qida təhlükəsizliyi üzrə mütəxəssis Ağa Salamov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, qidalara əlavə, ədviyyat kimi istifadə olunan, müalicəvi otlar düzgün istifadə edilmədikdə orqanizmdə fəsadlar yarada bilir:**

- Kəklikotu, əhalinin geniş istifadə etdiyi ətirli, dadlandırıcı, həm də müalicəvi bitkidir. Kəklikotunun bir deyil, bir neçə növü var, məsələn, qızılgül, limon kəklikotusu Naxçıvanda, Gədəbəydə yetişən kəklikotu xüsusilə məşhurdur, ətrinə, dadına görə. Amma kəklikotunu da necə gəldi istifadə etmək olmaz. Qan təzyiqi problem yaşayanlar diqqətli olmalıdır. Həkimlə məsləhətləşmədən bu otdan istifadə etmək qan təzyiqini aşağı sala və ya yuxarı qaldıra bilər. Bu da özünü baş ağrısı ilə göstərəcək. Bölgələrdə əhali kəklikotunu hardan oldu toplayır, çox adam otları tanımır deyə, kəklikotunun arasına başqa bitkilərin qarışması və onların zəhərli, ziyanlı olması da mümkündür. Ola bilər, hansısa zəhərli bitki təsadüfən kəklikotunun içinə qarışıb, amma onu toplayan bunu bilmədiyindən elə də satıb və ya bitkini toplayan adam evə gətirib və ondan istifadə ediblər. Küçədəki səyyar satıcılardan müalicəvi otlar, eləcə də kəklikotu almaq məsləhət deyil. Əhaliyə məsləhətim budur ki, kəklikotu və digər müalicəvi bitkiləri tanıdıqları adamlardan alsınlar, ya da tanıdıqları şəxslərə sifariş versinlər. Əgər belə tanış şəxs yoxdursa, insan özü də otların xeyirli-ziyanlı olanını tanımırsa, yaxşısı budur, xüsusi satış yerlərindən əldə etsin. Apteklərdə müalicəvi otlar satılır, ”yaşıl apteklər” var, paytaxtda. Belə yerlərdə müalicəvi otları əldə etmək çətin deyil. Marketlərdə də paketlənmiş qaydada kəklikotu da satılır, digər ədviyyatlar da. Həm apteklərdə satılanlara etibar etmək olar, həm də marketlərdə. Çünki belə satış mərkəzlərində satışa çıxarılan müalicəvi otların, ədviyyatların satışına rəsmi icazə verilir. Onlar standartlara uyğun olurlar.

**Mütəxəssis bildirdi ki, kəklikotu ilk baxışda adi, sadə bitki kimi görünə bilər. Lakin onun da özünəməxsus xüsusiyyətləri var:**

- Kəklikotunun ilin hansı fəslində, nə zaman, haradan toplanması önəmlidir. Bunu bölgələrdə yaşayan, təcrübəli şəxslər bilir. Kəklikotunun qurudulma qaydası var. Gərək günəş şüaları altında qurudulsun, rütubətli mühitdə yox. Müalicəvi, eləcə də qidalarda istifadə olunan bitkilərin, ədviyyatların saxlanma qaydasına da düzgün əməl edilməlidir. Rütubətli mühitdə bitkilər kif atır, faydalı xüsusiyyətlərini itirir. Faydalı olmalıykən, əksinə, ziyanlıya çevrilir.

**Məlahət Rzayeva**

# Ekoloji terrorun dərhal dayandırılmasını tələb edirik!

## Sevinc Fədai Şuşadan “Şərq”ə danışdı

**“Aksiya yalnız qarşıya qoyulan məqsədə çatdıqda, yəni ekoloji terrora son qoyulduqda yekunlaşacaq”.**

**Bunu ”Şərq”ə açıqlamasında aksiyada iştirak edən Qadın və Uşaq Akademiyası İctimai Birliyinin sədri, jurnalist Sevinc Fədai bildirib.**




O qeyd edib ki, aksiyanın əsas məqsədi vətəndaş cəmiyyətinin və gənclər təşkilatının tələblərinin Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkova çatdırılmasıdır: ”Bizə verilən məlumata görə, Volkov hadisə yerinə gələcək. Onun Xocalıda olduğu bildirilirdi və 3 saat ərzində gəlməyi gözlənilir. Ümumiyyətlə, artıq 4 saatdan çoxdur ki, buradayıq və Volkovun gəlməsini gözləyirik. Bizim əsas tələbimiz Azərbaycan təbiətinə və ekologiyasına zərər verməyə son qoyulmasıdır. Yəni rus sülhməramlılarından Qarabağın təbii sərvətlərinin qeyri-qanuni istifadəsini və ekoloji terrorun dayandırılmasını tələb edirik. Aksiya iştirakçılarının yüksək əhval-ruhiyyəsi var. Orada şüarlarla yanaşı Qarabağa aid vətənpərvər musiqilər də səslənir. Ərazidə çadırlar qurulub və hər kəs Volkov gəlmədiyi təqdirdə gecəni çadırlarda keçirəcəyini bildirir”.

Qeyd edək ki, hazırda Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində keçirilən aksiya davam edir.

Xatırladaq ki, etirazçılar Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkovun əraziyə gəlməsini tələb edirlər.

Aksiyanın keçirilməsində əsas məqsəd Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı monitorinq keçirilməsinə imkan yaratmağa nail olmaqdır.

**Nihat Müzəffər**

# Rus sülhməramlılarına qarşı etirazlar başladı

## Mülki əhali Xankəndiyə, Xocalıya, Xocavəndə dinc yürüş edə bilər









**Azərbaycanın Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı ilkin monitorinqi növbəti təxribat nəticəsində baş tutmayıb. Sülhməramlı kontigentin komandanlığı ilə Azərbaycan tərəfi arasında monitorinqə başlamaq barədə razılıq əldə olunsa da, sülhməramlılarla Qarabağdakı qanunsuz erməni dəstələrinin birgə təxribatı buna imkan verməyib.**

Heyət Rusiya sülhməramlılarının müşayiəti ilə faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının yerləşdiyi ərazilərə gəlsələr də, hər iki istiqamətdə təxribatla üzləşiblər. Heyətin Rusiya sülhməramlılarının gözü qarşısında yataqların yerləşdiyi ərazilərə girişinə maneə törədilib. Onlar əvvəlcədən bura gətirilmiş və özünü qondarma rejimin təmsilçisi kimi təqdim edən Ruben Vardanyanın başçılıq etdiyi yerli ermənilərlə qarşılaşıblar. Azərbaycanın rəsmi şəxslərdən ibarət heyəti Ruben Vardanyanla təmasa keçməkdən imtina edib və Şuşa şəhərinə qayıdıb.

Bundan sonra Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının nümayəndələri aksiya keçiriblər. Media və QHT nümayəndələri, aktivistlər Qarabağ iqtisadi rayonunda həyata keçirilən ekoloji terrorun dayandırılmasını tələb ediblər. Ərazidə çadırlar qurulub. Etirazçılar Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkovun əraziyə gəlməsini tələb ediblər. Azərbaycanlı aktivistlər Qarabağdakı erməniləri də onlara qoşulmağa çağırıblar: "Biz sülhməramlılara öz tələblərimizi irəli sürmək üçün buraya gəlmişik. Ekoloji terrora son deyirik. Öz haqlı tələblərimizi sülhməramlıların rəhbərinin nəzərinə çatdırmaq üçün buradayıq. Bütün Qarabağda olan erməniləri də bizə dəstək verməyə çağırırıq. Çünki onlar da bizim vətəndaşlarımızdır. Baş verən ekoloji terrora onlar da susmamalıdırlar. Qarabağda yaşayan erməniləri burada keçirdiyimiz aksiyaya qoşulmağa dəvət edirik". QHT fəalı Zəminə Zamanova deyib ki, məqsədləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı monitorinq keçirilməsinə imkan yaradılmasına nail olmaqdır. O bildirib ki, sülhməramlılar ermənilərin Azərbaycan ərazisində ekologiyaya zərər verən bütün hərəkətlərinə yol verməməlidirlər. Postda dayanan Rusiya sülhməramlılarına dəstək üçün əraziyə əlavə silahlı qüvvələr gəlib. Həmçinin separatçılar Xankəndidəki meydanda toplaşmağa başlayıblar. Bildirilib ki, onlar azərbaycanlı aksiyaçıların bağladıqları yolu açmaq arzusundadırlar. Qarabağdakı qondarma "rus icması"nın sədri Aleksandr Bordov deyib ki, öz mülki, siyasi, sosial, iqtisadi və mədəni "hüquqlarını" həyata keçirməkdə Rusiyanın dəstəyinə arxalanmaq hüququna malikdirlər. Bordov özünün təxribatçı çıxışında ölkəmizi 10 noyabr üçtərəfli bəyanatını pozmaqda ittiham edib: "Təəssüf ki, bizim ciddi problemlərimiz var və bu, ilk növbədə, müharibədən sonrakı reallıqlara aiddir. Üçtərəfli atəşkəs sazişi vaxtaşırı kobud şəkildə pozulur". Qeyd edək ki, Azərbaycanda Rus İcması rəsmən qeydiyyatdadır və aktiv də fəaliyyət göstərir. Bu icmanın rəhbəri Mixail Zabelin həm də millət vəkilidir.

**Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, sülhməramlılar Azərbaycanın sərvətlərinin qanunsuz istismarının qarşısının alınması üçün tədbir görməyib.** Onun sözlərinə görə, Azərbaycan tərəfi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısının alınması, eləcə də ekologiyaya mənfi təsirin nəticələrinin aradan qaldırılması məqsədilə sülhməramlı kontingentin komandanlığına dəfələrlə müraciət edib: "Bir çox hallarda, Azərbaycan tərəfinin bu müraciətlərinə cavab verilməyib və sülhməramlı kontingent tərəfindən Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının qarşısının alınması üçün heç bir tədbir görülməyib". A.Hacızadə qeyd edib ki, əldə olunmuş razılığa uyğun olaraq, 10 dekabr tarixində faydalı qazıntıların qanunsuz istismar olunduğu bu iki əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneçilik törədilib: "Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda, yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub. Bu vəziyyətlə əlaqədar, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Rusiya tərəfinə müvafiq nota təqdim edib. Əldə olunmuş razılığa uyğun olaraq, Azərbaycan nümayəndələrinin qeyd edilən yataqlara maneəsiz girişinin təmin edilməsinə bir daha çağırış edilib. Belə səfərə maneçilik törədilməsinin və ya hər hansı bir şərt irəli sürülməsinin qəbuledilməz olduğu vurğulanıb. Azərbaycan ərazilərinin bir hissəsində 10 noyabr 2020-ci il üçtərəfli bəyanata uyğun olaraq yerləşmiş Rusiya sülhməramlı kontingentinin bütün fəaliyyətində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət etməsinin zəruriliyi diqqətə çatdırılıb".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Şuşa ərazisində sülhməramlıların müvəqqəti nəzarət etdiyi yolda keçirilən etiraz aksiyası Rusiyanın başqa çıxış yolu qoymamasının nəticəsidir. Analitikə görə, Azərbaycan öz suveren ərazisində ekoloji monitorinq keçirmək məqsədilə sülhməramlılarla danışıqlar aparırdı və bir-birinin əksi olan iki hadisə baş verdi:** "Nümayəndələrimiz monitorinqə başlamaq üçün bölgəyə getdi. Sonra Vardanyan başının dəstəsi ilə prosesə mane oldu. Bu təsdiq edir ki, Azərbaycanın tələbi qarşısında "yox" deyə bilməyən ruslar "mülki təxribat"la qarşısını aldılar. Şuşa yolunda keçirilən aksiya bu kontekstdə "mülki təxribata" qarşı mülki etiraz formasıdır və siyasi baxımdan da ən doğru seçim hesab edilə bilər. Artıq sülhməramlıların (Rusiyanın) qarşısında təkcə diplomatlar və hərbçilər yox, həm də praktiki olaraq xalq var. Və bu aksiya ümumilikdə Qarabağ iqtisadi rayonuna qayıdışın cığırını da açır. Mülki əhali Xankəndiyə, Xocalıya, Xocavəndə yürüş edərsə, heç bir qüvvə qarşısını ala bilməyəcək. Rusiya rəhbərinin zənginin Şuşa yolundakı aksiyanın dayandırılması məqsədi daşıdığı bəllidir. Lakin Bakı geri çəkilməyib, hadisələrin inkişafı bu versiyanı gücləndirir. Sülhməramlılar modul tipli yataqxanalar quraşdırır. Xankəndidəki ermənilər azərbaycanlıların çadır qurduğu əraziyə gətirilir. Mümkündür ki, dövlət başçısı haqlı tələblərin yerinə yetirilməsinin alternativi olmadığını deyib. Bu kontekstdə rusların nələr edə biləcəyi maraqlıdır. Prosesi bir neçə gün uzatmaqla aksiyanın dağıla biləcəyi imkanını dəyərləndirəcəklər. Rus hərbçilərin özlərinə "yataq" düzəltməsi də qarşıdakı günlərdə tələblərin qəbul olunacağı gözləntisini azaldır. "Mülki erməniləri" azərbaycanlıların üzərinə göndərəcəklər və bununla aksiyaya adekvat addım atacaqlar. Yolun bağlı qalması və Qarabağdakı "mülki əhalinin" əziyyət çəkməsi iddiasını İrəvan üzərindən beynəlxalq ictimaiyyətin gündəliyinə daşımağa, Bakıya əlavə təzyiqlərin edilməsinə nail olmağa çalışacaqlar. Hərçənd, bu gedişlərin Bakının mövqeyinə təsir edəcəyi ehtimalı böyük deyil".

**İsmayıl Qocayev**

# Azərbaycan xarici siyasətindəki prioritetləri yeniləyib

## Türk Dövlətləri Təşkilatının gücə çevrilməsi Bakıya Tehranın yerində otuzdurulması üçün xeyli stimullaşdırıcı ideyalar verir

**77 il öncə - 1945-ci il dekabrın 12-də (21 azər) Güney Azərbaycanın Təbriz şəhərində Azərbaycan Milli Hökuməti yaradılıb. İkinci Dünya müharibəsi Böyük Britaniya və SSRİ-nin İran adlanan ərazidə əlini gücləndirmişdi. Rza şah Pəhləvinin süquta uğrayan istibdad rejimi İranda fərqli-fərqli epizodlarla yadda qalıb. Elə həmin anlarda Azərbaycanın güneyində başlayan Milli Azadlıq Hərəkatı 1945-ci il dekabrın 12-də Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi Milli Hökumətin qurulması ilə nəticələnib. Bu hadisə tarixə "21 Azər" hərəkatı olaraq da həkk olunub.**

Ömrü bir ilə sığan bu hökumət hələ 20 il öncə İranda min il sürən türk hökmranlığına son qoyaraq hakimiyyəti ələ keçirən Pəhləvi rejiminin etmədiklərini reallaşdırdı. Yeni yaranan Milli Hökumət İranda Azərbaycan türklərinin milli muxtariyyət hüququnu tanıyan bir quruluş kimi fəaliyyətə başlasa da, daha sonra hədəflərini genişləndirərək müstəqillik siyasəti yürüdüb. Azərbaycan türkcəsinin dövlət dili olaraq qəbul edilməsi, ana dilində kitabların çapı, Təbriz Dövlət Universiteti və çox sayda orta məktəblərin açılması, milli teatr və mili filarmoniyanın qurulması, milli kitabxanaların istifadəyə verilməsi, Güney Azərbaycan Milli Ordusunun yaradılması, qadınlara kişilərlə yanaşı bərabər hüquqların verilməsi və digər bu kimi qərarlarla güneyli soydaşlarımızda ümid işığı yaradıb. Xalqın dəstəyini arxasına alan "21 Azər" hərəkatı 1946-cı il dekabrın 12-də İran rejiminin xain planı ilə iflasa uğradı. Süquta uğradılmamışdan öncə İran mərkəzi hökuməti Azərbaycan Milli Hökuməti ilə imzaladığı anlaşmalarla bu muxtar dövləti rəsmən tanımış olsa belə, eyni il içərisində Pəhləvi rejiminin ordusu Azərbaycana hücum edərək Milli Hökumətin mövcudluğuna son qoydu. Azərbaycanın işğalının ardından minlərcə Azərbaycan türkünə qarşı qətliam həyata keçirildi, minlərlə soydaşımız sürgünə göndərildi.

**Siyasi şərhçi, jurnalist Aqşin Kərimov deyib ki, Rusiya və İranın tarixin müxtəlif periodlarında bir-birilərinə qarşı apardıqları müharibələrin acı nəticələri azərbaycanlıların taleyinə calaq edilib. Ekspertin fikrincə, Rusiya və İran imperiyalarının tarixdəki didişmələri, onların hərb və sülh modeli azərbaycanlıları lənət zolağına salıb. Sonrakı mərhələlərdə soydaşlarımızın Araz çayı boyunca bir-birindən ayrı düşmələri ilə nəticələnən prosesi yekunlaşdırıb:** "Azərbaycan tarixin bu amansız şilləsini heç zaman unutmadı və bir-birindən ayrı düşən talelərin qovuşması üçün səy göstərdi. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə də məsələ diqqətdə saxlanıldı. Ancaq proseslərin amansız və hədsiz ambisiyaları Azərbaycanın başı üzərində qara bulud topasını qatılaşdırdı. Rusiya imperiyasının çökməsindən sonra yaranan müstəqil dövlətlər, o cümlədən Azərbaycan süquta uğrayıb SSRİ-nin çətiri altına girmək qisməti ilə barışmalı oldu. Rusiya imperiyasının yerini tutan SSRİ zamanında belə, Azərbaycanın İrandakı soydaşlarımızla mənəvi telləri eroziyaya məruz qalmadı və nisgil, həsrət vahid ideoloji təməl üçün yeni mərhələnin başlanmasına səbəb verdi.

Bəli, SSRİ özü də bunda maraqlı idi, çünki SSRİ regiondakı tarixi rəqibi İrana dərs vermək üçün siyasi tərəzisində Cənubi Azərbaycan amilinin çəkisini artırırdı. Ancaq Kremlin qeyri-səmimi hisslərindən fərqli olaraq, Azərbaycandakı cənub həsrətinin cövhərində saf, ülvi hisslər dayanırdı. Gülüstan və Türkmənçay müqavilələrinin nəticələri ilə barışmayan Azərbaycan və cənubdakı soydaşlarımızın bir-biri ilə qarşılıqlı sevgisi və işi nəticəsində İranda milli hərəkat başlanır. Seyid Cəfər Pişəvərinin başçılığı altında aparılan mübarizə nəticəsində İranda 1945-ci ilin 12 dekabrında muxtar sosialist hökumət qurulur. Paytaxtı Təbriz şəhəri olan hökumətə Seyid Cəfər Pişəvəri rəhbərlik edir. Milli Hökumət bir sıra tədbirlərlə yadda qalır və bununla da sanki bu gün üçün presedentin əsasını qoyur. Pişəvərinin başçılığı altında olan Milli Hökumət Güney Azərbaycanda milli ordunun yaradılmasına, torpaq islahatlarının həyata keçirilməsinə, Təbriz Dövlət Universitetinin və çoxlu sayda orta məktəbin açılmasına, milli teatrların, milli kitabxanaların, milli filarmoniyanın yaradılmasına nail olur. Fəhlələrin hüquqlarının qorunması, qadınların kişilərlə eyni haqlara malik olması istiqamətində mühüm qərarlar verir. Lakin Milli Hökumətin ömrü cəmi bir il çəkir. İrandakı rejim Təbrizdə və Güney Azərbaycanın digər şəhərlərində vəhşiliklər törədir, milli və ictimai fəallar edam edilirlər. Məlumatlara əsasən, 1946-cı ilin 12 dekabrında Milli Hökumət süquta uğrayandan sonra İranda 30 min insan öldürülür. Qurduğu muxtar dövlətin qürubunu həzm edə bilməyən Pişəvəri Azərbaycana pənah gətirir. Amma o da Yevlaxda müəmmalı şəkildə baş verən yol qəzasında həlak olur".







"21 Azər" hərəkatı İrandakı soydaşlarımızın hüquqlarını müdafiə etmək üçün istinad edə biləcəyimiz presedentlərdən biri kimi götürülə bilər"

**Ekspert bildirib ki, Pişəvərinin qurduğu hökumət tarixə "21 Azər" hərəkatı adı ilə möhür vurur. Bu, Azərbaycandakı cənub mövzusuna xeyli stimullar verir:** "Ədəbiyyatda, filmlərdə, mədəniyyətdə İranda yaşayan soydaşlarımızın taleyi ilə bağlı nüansların sayı çoxalır. Gün gəlir, dövran dönür, SSRİ tarixi burulğanların içərisində qürub edir. Azərbaycanda isə cənub eşqi sönmür və müstəqillik illərinin şüarları içərisində xüsusi yerə sahiblənir. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistan üzərində həlledici qələbə qazandıqdan sonra Cənubi Qafqazda yaranan reallıqlar kontekstində rəsmi Bakının xarici siyasət prioritetlərinə diqqət etməyinin zamanı da yetişdi. Prezident İlham Əliyev azərbaycanlıların bir-birindən ayrı düşməsini diqqətdə saxlayır, beynəlxalq siyasi konyunktur şərtlərini nəzərə alaraq, böyük məharətlə bəzən dərin subliminal, bəzən isə açıq mesajlarla Gülüstan və Türkmənçay müqavilələrinin başımıza açdığı oyunları diqqət mərkəzinə gətirir. İranın Azərbaycana axıtmaq istədiyi təhlükəli plazmalar qarşısında dövlət başçısı İlham Əliyevin tezisləri xüsusi əks-həmlə metodu kimi başa düşülməlidir. Etiraf etmək lazımdır ki, onlar molla rejiminin taleyini sual altına qoyan güclü aspektləri özündə cəmləşdirir. Azərbaycan dövləti üçün indi Cənubi Azərbaycan mövzusu strateji həssas məsələlər siyahısında yer alır və regionda, qlobal arenadakı konyunktur, Türk Dövlətləri Təşkilatının gücə çevrilməsi Bakıya Tehranın yerində otuzdurulması üçün xeyli stimullaşdırıcı ideyalar verir".

**A.Kərimov vurğulayıb ki, dövlət başçısı İlham Əliyev dünyada türk kimliyinin milli-siyasi-dini əsaslarla qorunması və daha da ucalara qaldırılması üçün 11 noyabrda Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə mühüm istiqamətlər təqdim edib:** "Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil. Onun coğrafi sərhədləri daha geniş olduğundan kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatıb. Türk dünyasında gənc nəslin yaşadığı ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır.

Burada əsas vurğu İran üzərinə edilir və molla rejiminin soydaşlarımıza qarşı amansız fəaliyyətinin qəbuledilməz olduğu göstərilir. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır. Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin açıqlamaları birinci növbədə Azərbaycan dövlətinin Türkiyə ilə mərkəzləşmiş qaydada vahid proqram tərtib etmək çağırışını meydana qoyur. İkinci istiqamət budur ki, İranın Azərbaycana qarşı hədyanlarına cavab olaraq atılacaq addımların TDT çərçivəsində koordinasiya edilməsinin vacibliyi əhəmiyyət daşıyır. Dövlət başçısının dedikləri kollektiv müdafiənin prinsiplərinin hazırlanması üçün məcraları müəyyən edir. Üçüncüsü, bunlar beynəlxalq ictimaiyyətin şüuruna yeridilən mesajlardır. Yəni Azərbaycan xarici siyasətindəki prioritetləri yeniləyib və Cənubi Qafqazdakı reallıqlar qlobal tərəfləri Bakıya dəstək olmağa vadar etməlidir. "21 Azər" hərəkatı İrandakı soydaşlarımızın hüquqlarını müdafiə etmək üçün istinad edə biləcəyimiz presedentlərdən biri kimi götürülə bilər".

**İsmayıl**

# Öndə gənclərdir

## İranda baş verən hadisələr xarici güclərin də maraq dairəsindədir



### Hətta bir neçə yüksək rütbəlinin xalqın tərəfinə keçməsi gözlənilir

**Tehran və İranın digər şəhərlərdə etiraz aksiyaları davam edir. İsfahan, Təbriz, Kərəc və Tehranda gecə saatlarında səssiz yürüş keçirilib. Universitetlərdə keçirilən aksiyalarda isə saxlanılmış tələbələrin azadlığa buraxılması tələb olunub. Eyni zamanda 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günündə İranda ümummilli etirazlara dəstək olaraq bir sıra ölkələrdə aksiyalar keçirilib.**

Etirazların 13-cü həftəsində öldürülən nümayişçilərin sayı 485-ə çatıb. Öldürülənlərdən 68 nəfərin uşaq və yeniyetmə olduğu bildirilir. 143 universitetdə keçirilən tələbə aksiyaları zamanı 620 tələbə saxlanılaraq həbsxanalara aparılıb. İranın daxili işlər nazirinin müavini Məcid Mirəhmədi etirazçılara sərt davranılacağını açıqlayıb. Bildirib ki, edam hökmləri ilə bağlı beynəlxalq təzyiqlərə əhəmiyyət verilməyəcək: ”Beynəlxalq reaksiyalar İran məhkəmə sistemi məsullarının qəti cəza tədbirləri ilə bağlı iradələrinə təsir göstərə bilməyəcək. Media hücumuna baxmayaraq, hökumət etirazçılara qarşı sərt mövqe nümayiş etdirəcək”. İranın Qərbi Azərbaycan vilayətinin Sərdaş şəhərində keçirilən aksiyalar zamanı həbs edilən Şəhriyar Adeli adlı gənc öldürülüb. Məlumata görə, Ş.Adeli İran rejiminin amansız işgəncələri altında həlak olub. İran parlamentinin sədri Məhəmməd Bağır Qalibaf isə etiraf edib ki, bir sıra sahələrdə problemi həll etmək qüdrətinə malik deyillər. Onun sözlərinə görə, yenilik cəsarət tələb edir: ”İslahat və yenilik riskli işdir. Cəsarətli və yaradıcı qüvvələrə ehtiyacımız var. İdarəetmə sistemi bu cəsarəti dəstəkləməlidir. Transformasiyaya və yeniliyə sahib olmaq bunu tamamlayır. Parlament sədri söyləyib ki, problemi həll etmək gücündədirlər, lakin bunu vaxtında etməyiblər, sonradan atılan addımlar isə öz dəyərini itirir.

Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrell İrana qarşı növbəti sanksiyaların tətbiq olunacağını bildirib. Ötən həftə İran xarici işlər naziri Hüseyn Əmir Abdullahianla telefon danışığını xatırladan Borrell deyib ki, o, danışıq zamanı qarşı tərəfə Aİ-nin narahatlığını çatdırıb və bildirib ki, Aİ İrandakı edamları qəti şəkildə pisləyir: ”Bu gün İrana qarşı qəbul ediləcək sanksiyalar həm humanitar səbəblərdən, həm də İranın Rusiyaya verdiyi dəstəyə görə tətbiq olunacaq. İrana qarşı çox sərt sanksiyalar paketini təsdiqləməyə hazırlaşırıq. İran XİN başçısı ilə heç də asan dialoqum olmadı. İran anlamalıdır ki, Aİ bu ölkədə baş verənləri qəti şəkildə pisləyir, İran qadınlarını, dinc nümayişçiləri dəstəkləmək üçün əlimizdən nə gəlirsə edəcəyik”.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Tural İrfan ”Şərq”ə deyib ki, İranda baş verən hadisələr xarici güclərin də maraq dairəsindədir. Analitikə görə, proseslərdə vaxtilə İran rejimini quran güclərin rolu da böyükdür:** ”İran rejimi həm xarici, həm də daxili siyasətdə iflasa uğrayıb. Artıq İran valyutası öz dəyərini itirir. Daxildə çaxnaşmalar əvvəl təkcə hicab məcburiyyətinə, öldürülən insanlara görə idisə, indi artıq sosial problemlər də buna əlavə olunub. İran demək olar ki, bütün dünyanı özünə düşmən edib, öz xalqını amansızcasına məhv edir. Bu da müsəlman dövlətlərini hiddətləndirir. Məsələ budur ki, ali dini mərkəz ilə hökumətin arasında vəhdət var. Yəni eyni ideoloji xətt üzrə hərəkət edirlər. Və ali dini mərkəz daha mühafizəkardır. Bütün qanunların qəbulu, xalqa verilən işgəncələrin hamısı ali dini mərkəz tərəfindən idarə olunur. Hakimiyyəti devirməyə xalqın da kifayət qədər gücü və iradəsi var. Artıq iğtişaşlar başladığı zaman kəsimi elə bir uzun müddəti ehtiva edir ki, rejimin laxlamasını deməyə əsas var. Lakin xarici gücləri maraqlandıran hazırkı rejimin çökməsi yox, onun əvəzinə qurulacaq hakimiyyət və İran dövlətinin parçalanması məsələsidir. Məsələn, bu məsələdə şübhəsiz ki, Fransa ilə ABŞ-nin mövqeyi fərqlidir. Türkiyə və Azərbaycanın mövqeyi də fərqlidir. Şübhəsiz, biz Güney Azərbaycanın müstəqilliyini və soydaşlarımızın azadlığını müdafiə edirik. Lakin Fransa kimi dövlətlər hazırkı rejimin qalmasında maraqlıdır. Ona görə ki, bu rejimi quranların biri də Fransadır və Türkiyə, Azərbaycan əleyhinə İranın çıxışlarının Fransa ilə üst-üstə düşməsi heç də təsadüf deyil”.

**T.İrfan vurğulayıb ki, xarici güclər İranın parçalanması və ya rejimin getməsi məsələsində razılaşmalıdır ki, məsələ bitsin:** ”Hələ ki bu razılıq yoxdur. Məsələn, İsrail hər cür vəchlə ABŞ-nin hətta hərbi müdaxiləsində təkid edir. Rusiyanın da öz maraqları var. Xülasə olaraq demək olar ki, İranda hakimiyyətin və ali dini mərkəzin islahata getməsi və ya xoşu ilə xalqın rəyinə uyğun addım atması artıq gecdir. Bu fürsəti onlar aylar öncə qaçırdılar. Artıq kifayət qədər insan tələfatı, edam edilənlər var. İrandan demək olar ki, farslar da daxil olmaqla bütün xalq İran rejiminə, hazırkı din adı altında qurulmuş rejimin getməsini tələb edir. Demək tələb yerinə yetməyincə, bu, davam edəcək. Xarici güclər də öz hesablarını xalqın bu rəyinə əsasən aparacaqlar. Hesab etmək olar ki, xalqın sakitləşməsi mümkün deyil, bundan sonra təxminən səkkiz ay bu vəziyyət davam edəcək. Sonda rejim bir neçə aldadıcı manevrlər etməklə xalqın könlünü almağa faydasız cəhdlər edəcək. Hətta bir neçə yüksək rütbəlinin xalq tərəfə keçməsi də gözlənilir. Bundan sonra rejim çökəcək. Ancaq İranın parçalanmasına ümid hələ ki, azdır. Ona görə ki, qalxınma hələ milli mübarizə və xalqların müstəqillik tələbi formasını almayıb və ortada liderlər yoxdur”.

*T.İrfan qeyd edib ki, Güney Azərbaycan əhalisinin liderinin ortaya çıxmaması gələcəkdə məsələ milli müstəqillik mövzusuna keçəndə qorxulu hal ala bilər:* ”Farslardan, kürdlərdən lider çıxa bilər və 1979-cu ildə olduğu kimi azərbaycanlıların inqilabını oğurlayarlar. Necə ki o zaman da inqilabı Təbriz başlatdı, Ayətullah Şəriətmədari başçılıq etdi, sonda isə Fransa və başqa güclər Xomeynini gətirib Şəriətmədarini aradan götürdülər və Güney Azərbaycan məsələsi basdırıldı. Ona görə xarici güclərin vahid İran üçün lider qondarmasından əvvəl hər xalq öz liderini seçməlidir. Əks halda İranın parçalanmasının əleyhinə olan güclər keçmiş şah kimi öz adamlarını da gətirib oturda bilərlər və o rejim bundan daha betər ola bilər”.

**İsmayıl Qocayev**



**Türkiyə Silahlı Qüvvələrinin generalı general-polkovnik Bəxtiyar Ersayın müdafiə nazirinin müşaviri təyin olunması Azərbaycanla Türkiyənin Şuşa Bəyannaməsindən sonra qət edilən yolun nəticələrindəndir”.**

Bunu ”Şərq”ə açıqlamasında hərbi ekspert Elxan Şıxəliyev deyib.

O bildirib ki, Azərbaycana

# Bəxtiyar Ersayla zaman tezləşəcək

## Azərbaycan Ordusu Türkiyə modelinə keçir

qarşı ərazi iddiası irəli sürülərsə, təhdid və təhlükə yaradan ölkələr olarsa, Türkiyəni də qarşılarında görəcəklər: ””Qardaş yumruğu” (red. Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə baş tutub) təlimləri ilə bölgədə bizə dost və düşmən ölkələrə mesaj ötürdük.

Azərbaycanın təhlükəsizliyi Türkiyənin təhlükəsizliyidir və yaxud əksinə. Türkiyənin təhlükəsizliyi Azərbaycanın təhlükəsizliyidir.

Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə modelinə keçirilməsində general-polkovnik Bəxtiyar Ersayın fəaliyyətini vurğulamalıyıq.

MN müşavirliyinə yeni təyinat Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə modelinə keçidini daha səmərəli və keyfiyyətli edəcək. Zaman da tezləşəcək. Sonrakı mərhələdə Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə Silahlı Qüvvələri səviyyəsində döyüş hazırlığına malik olacaq. Nəticə etibarilə NATO-nun ikinci ən güclü ordusu səviyyəsinə yüksələ biləcəyik”.

Qeyd edək ki, türkiyəli general-polkovnik Bəxtiyar Ersay Azərbaycan müdafiə nazirinin müşaviri vəzifəsinə təyinat alıb. Bəxtiyar Ersay Türkiyənin Azərbaycandakı Xidmət Qrupu Komandanlığının komandanıdır.

**Aygün Tahir**

# "1988-ci ildə də belə olmuşdu"

## Məhsa Mehdili: “İran rejimi edamlarla xalqın iradəsini qırmağa çalışır”



**İranın Məşhəd şəhərində Məcidrza Rəhnəvərd ictimaiyyətin gözü önündə dar ağacından asılıb.**

”Azad İran” ”Telegram” kanalı bu barədə İranın Xorasan-e Rəzəvi əyalətinin ədliyyə idarəsinin rəisi Qulaməli Sadeqiyə istinadla bildirib.

Qeyd edilir ki, edam hökmü ”əmin-amanlığın, təhlükəsizliyin bərpa olunması uğrunda qiyamçılara və qanunu pozanlara qarşı mübarizə” çərçivəsində icra olunub.

İran İnqilab Məhkəməsinin Məşhəddəki idarəsi Məcidrza Rəhnəvərd barəsində 23 gün öncə ölüm hökmü çıxarıb. Hökm dekabrın 12-də səhər saatlarında icra olunub.

Xatırladaq ki, bu, barəsində ölüm hökmü çıxarılan və icra olunan ikinci şəxsdir. Bundan əvvəl Mohsen Şekari dar ağacından asılıb.

**Hadisəni pisləyən Türkiyədə yaşayan güney azərbaycanlı siyasi şərhçi Məhsa Mehdili ”Şərq”ə bildirib ki, İran dünyada ən çox edamın yaşandığı ölkədir:** ”Hazırda hər şəhərdə etirazçıların edam edilməsi ilə bağlı qərarlar verilir. Bu isə ilk deyil. Molla rejimi hələ 1988-ci ildə geniş ölçüdə, hətta məhkəmə belə keçirmədən bakirə qızlara təcavüz edib, sonra edam etdi. Bir çox ictimai və siyasi xadim, tələbə dar ağacından asıldı.

Hazırda baş verənlər isə artıq yeni bir axındır. Onlar indiyə qədər bəlucları və ərəbləri çox edam ediblər. Son etirazlardan sonra da çox insana ölüm hökmü verilib və onların hamısının həyatları təhlükədədir.

Yəni iş o yerə çatıb ki, biz İrandakı rejimə bəşəriyyətin üz qarası deyə bilərik. Çünki onlar qorxudaraq insanları susdurmağa və etirazları səngitməyə çalışırlar. Bu isə illərdir, belə davam edir”.

Analitik qeyd edib ki, edam çox çətin məsələdir: ”Biz bu hadisələrin yaxından şahidi olmuşuq. Onlar istədiyi zaman səni tutaraq bəzən məhkəmə keçirir, bəzən də məhkəməsiz şəkildə həyatına son qoyurlar.

Ölümün qoxusu gəldikdə isə təbii ki, hər kəs çəkinir. Ona görə də müzakirə mövzusu dar ağacı olduqda xalqın iradəsi qırıla bilər.

Çünki 1988-ci ildə də belə olmuşdu. Edam olunanların çoxunun ailəsi 6-7 aydan sonra bildi ki, onların yaxınları dar ağacına çəkilib.

Hətta bu rejim ölənlərin ailəsindən atdıqları güllənin belə pulunu aldı. Bunlara öz gözlərimlə şahid olmuşam. Ümumiyyətlə, onlar hər zaman toplumun ən yetkin insanlarını öldürərək, ictimaiyyətdə qorxu toxumu səpirlər”.

**Nihat Müzəffər**

# ABŞ-nin hərbi büdcəsi astronomik həddə çatdı

## Hərbi büdcənin 800 milyon dolları Ukraynanın təhlükəsizliyinə xərclənəcək



### Gələn il təkcə Amerikanın Avropadakı hərbi varlığına 6 milyard dollar ayrılacaq

**ABŞ Konqresi 2023-ci il üçün hərbi büdcəni razılaşdırıb. Konqresin hərbi büdcəsi Nümayəndələr Palatası ilə Senatın komissiyalarında qızğın müzakirələrdən keçib. Amerika 2023-cü ildə hərbi məqsədlər üçün 858 milyard dollar xərcləyəcək. Bu, astronomik məbləğdir. Amerikanın builki hərbi büdcəsi 778 milyard dollar civarında idi. Hərbi büdcə imzalanması üçün Prezident Co Baydenə göndərilib.**

*Politoloq Elxan Şahinoğlu deyib ki, Ukrayna müharibəsi və Rusiyanı dayandırmaq baxımından Amerikanın gələn il üçün hərbi xərclərinin artırılması nəzərdə tutulub. Ekspert vurğulayıb ki, hərbi büdcənin 800 milyon dolları Ukraynanın təhlükəsizliyinə xərclənəcək:* ”Əvvəlki büdcədə 500 milyon dollar nəzərdə tutulmuşdu, 300 milyon dollar əlavə edilib. Amerikanın Avropadakı hərbi varlığına 6 milyard dollar ayrılacaq. Bu, əvvəlki büdcə layihəsindən 2 milyard dollar artıqdır.

Konqres Qərb ölkələrinin Rusiyadan enerji asılılığını azaltmaq, sanksiyaların artırılması və Rusiyanı ”böyük iyirmilərdən” çıxarması yolları üzərində də düşünür. Kreml Konqresin gərginliyi artıran sənədini tənqid edib. Yeni hərbi büdcəyə görə texnoloji xərclər artırılacaq, yeni təyyarələr və gəmilər üzərində çalışmalar davam edəcək. Yeni nəsil bombardmançı təyyarələr istehsal ediləcək. ABŞ müdafiə naziri Loyd Ostin ”B-21 Raider” tipli təyyarə istehsalını tarixi hadisə adlandırıb. Bu təyyarələr dünyanın istənilən nöqtəsinə adi və nüvə başlıqlı raketlər daşımaq imkanına malikdirlər. Digər tərəfdən yeni təyyarələr ”Stels” texnologiyası kimi hava hücumundan müdafiə sistemlərinin radarlarına düşmür”.

**E.Şahinoğlu bildirib ki, ABŞ hərbi büdcəsinin artımı yalnız Rusiyanın işğalçı siyasəti ilə bağlı deyil:** ”Vaşinqton Çini də durdurmaq istəyir. ABŞ Hind-Sakit okean bölgəsindəki xərclərini 11 milyard 500 milyon dollar civarında planlaşdırıb. Bu həm Çini durdurmaq, həm də Amerikanın bölgədəki müttəfiqlərinə dəstək üçün nəzərdə tutulub. Bu çərçivədə Amerika Tayvanın təhlükəsizliyinin gücləndirilməsi üçün 5 ildə 10 milyard dollar xərcləyəcək”.

**İsmayıl**



## Fransanın Moskvadakı səfirliyinə ölü siçan və hörümçək göndərilib

**Fransanın Moskvadakı səfirliyinə içində ölü siçan və hörümçək olan bağlama göndərilib.**

Azərtac xəbər verir ki, bu barədə Rusiya KİV-ə hüquq-mühafizə orqanlarındakı mənbədən məlumat verilib.

Hazırda Rusiya polisi hadisəni araşdırır. Mənbə hadisənin ötən həftə baş verdiyini bildirib. Fransa səfirliyi Rusiya hüquq-mühafizə orqanlarına müraciət edib. Bağlama Notarianni adlı şəxsin adından göndərilib.

## Tibbi sığorta ilə 184 uşağa ürək əməliyyatı edilib

**”Bu il müqaviləli tibb müəssisələrində icbari tibbi sığorta çərçivəsində aparılan 16 632 ürək-damar əməliyyatının 184-ü uşaqlar üzərində aparılıb”.**

Bunu Kardiologiya Cəmiyyətinin XI Milli Konqresində çıxışı zamanı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev deyib.

Zaur Əliyev ölkəmizdə artıq çətin ürək-damar xəstəlikləri ilə bağlı əməliyyatların keçirildiyini diqqətə çatdırıb.

”M.A.Topçubaşov adına Elmi-Cərrahiyə Mərkəzində 18 yaşdan yuxarı şəxslər üzərində 394, uşaqlar üzərində isə 177 ürək əməliyyatı icra olunub. Artıq ölkəmizdə mümkün olmayan ürək-damar xəstəlikləri ilə bağlı əməliyyatlar ölkəmizdə də həyata keçirilir”, - sədr deyib.

# Taarif Şurası əlini çəkməlidir

## Əks təqdirdə dərmanların qiyməti ucuzlaşmayacaq



**”Taarif Şurası vasitəsilə dərman qiymətlərinin tənzimlənməsi qərarı yanlış və mənasız qərardır. Dərhal bu tənzimlənmə mexanizmi ləğv edilməlidir”. Bunu iqtisadçı Natiq Cəfərli feysbuk səhifəsində yazıb. Ekspert bildirib ki, bu mexanizm yaradılandan sonra qiymətlər qalxıb: ”Keyfiyyət isə aşağı düşüb, çünki qiymət təyin edilməsi istehsalçı ölkələr və molekullar üzrədir.**

Bu zaman molekulların ən ucuzu, keyfiyyətsizi alınıb ölkəyə gətirilir. Keyfiyyətli dərman qıtlığı yaranır və qiymətlərin yüksəlməsi prosesi baş verir. Ölkədə Taarif Şurasının tənzimlənməsi tətbiq olunandan, onlarla dərman satan kiçik və orta şirkətlər iflas edib bazardan çıxdılar. Böyük şirkətlər qalıblar ki, onlar da qiyməti diktə etməkdə çətinlik çəkmirlər. Digər məsələ gömrük rüsumları və vergilərlə bağlıdır. Bu məsələ birbaşa hökumətdən və parlamentdən asılıdır. Ölkədə dərman preparatlarına 18 faiz ƏDV var. Niyə olmalıdır ki?! Niyə sıfırlanmır, azaldılmır, gömrük rüsumları tam ləğv edilmir? Baş nazir Əli Əsədov özü etiraf edir ki, 95 faiz dərmanları xaricdən gətiririk. Yerli istehsal yox kimidir, bəs bu rüsumlar nədən var?! Gömrükdə o mallara yüksək rüsum olmalıdır ki, bol yerli istehsalı var. Daxili istehsalçını qorumaq üçün müəyyən ”proteksionist” yanaşma mümkündür. Bizdə olmayan istehsalı qoruyurlar. Anlamırlar ki, istənilən rüsum və verginin son ödəyicisi vətəndaşdır, istehlakçıdır”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği:**



# Heydər Əliyevin ideyaları yolumuzu işıqlandırır

## Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq

**Dünən müasir və müstəqil Azərbaycan dövlətinin memarı, dünya şöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin vəfatından 19 il ötdü. Bu münasibətlə dövlət rəsmiləri ilə yanaşı, ictimaiyyət nümayəndələri, sıravi vətəndaşlar Fəxri xiyabana axın edərək Ulu Öndərin məzarını ziyarət edərək, xatirəsini andılar, ruhuna dualar oxudular. Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.**

Prezident Öndərin məzarı önünə əklil qoyub. Müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyalarının işığında zirvədən-zirvəyə, qələbədən-qələbəyə doğru inamla irəliləyir. Uca zirvələr uzaqdan daha aydın göründüyü kimi, Heydər Əliyev şəxsiyyətinin əzəməti və böyüklüyü də illər ötdükcə daha dərindən dərk olunur. Buna mütənasib olaraq xalqın öz dahi oğluna məhəbbət və ehtiramı da artır. Ümummilli Lider Heydər Əliyevin vəfatından ötən 19 ildə Azərbaycan tanınmaz dərəcədə dəyişərək dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. Otuz il işğal altında qalan torpaqlarımız siyasi-hərbi yolla azad olunub, ərazi bütövlüyümüz bərpa edilib. Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə bir sıra transmilli energetika və nəqliyyat layihələri reallaşdırılıb. TANAP və TAP boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub nəqliyyat dəhlizi ölkəmizə mühüm siyasi-iqtisadi dvidendlər gətirməkdədir. Bu gün Azərbaycan azsaylı kosmik ailənin üzvünə çevrilib. Səsimiz beynəlxalq kürsülərdən daha gur eşidilir, bayrağımız uca zirvələrdə dalğalanır. Bütün bu uğurların, möhtəşəm qələbələrin əsasında Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti dayanır. Zamanın axarında Azərbaycan da, həyatımız da tamamilə dəyişib. Dəyişməyən yeganə reallıq xalqın öz böyük oğluna tükənməz məhəbbət və ehtiramıdır. Vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin ideyaları yaşayır, yollarımızı daim işıqlandırır.

Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı öz xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi hisslərin parlaq təzahürüdür.

Ulu Öndər Azərbaycanda sosial rifahın bərbad vəziyyətdə olduğu, iqtisadiyyatın tənəzzülə uğradığı, vətəndaş qarşıdurmasının, eləcə də ermənilərlə müharibə şəraitinin hökm sürdüyü bir dövrdə hakimiyyətə gəlib. Bununla yanaşı dünyada Azərbaycana qarşı yürüdülən ikili standartlar ölkənin, az qala, müvazinətinin itirilməsinə səbəb olmuşdu. Bütün bunların fonunda Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlməklə ölkədə sabitlik və əmin-amanlıq bərpa edildi. Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə gələn zaman başlıca amalı Azərbaycanın işğal olunmuş torpaqlarını düşmən tapdağından azad etmək olub. O, ölkə rəhbəri olduğu müddətdə müasir Azərbaycanın qurucusuna çevrildi və gördüyü işlərlə, yürütdüyü siyasətlə xalqın əbədi rəğbətini qazandı. Qarabağın, Şərqi Zəngəzurun azad olunması üçün səylərini əsirgəməyən mərhum lider Azərbaycanda davamlı siyasətin əsasını qoydu. Ömrünün 80-ci ilində dünyasını dəyişsə də, onun adı, siyasəti və dəsti-xətti əbədiyaşar ideologiyaya çevrildi. Məhz Ulu Öndərin əsasını qoyduğu siyasətin davamı olaraq, bu gün Qarabağ da, Şərqi Zəngəzur da azaddır. Ümummilli Liderin siyasi kursunun davamçısı olan Prezident İlham Əliyev uzun illər işğal altında olan torpaqları azad etməklə Heydər Əliyevin ən böyük arzusunu gerçəkləşdirdi. Bununla da, Ali Baş Komandanımız 30 illik erməni işğalına, məcburi köçkünlərin intizarına, yurd həsrətinə son qoymaqla ata vəsiyyətini layiqincə yerinə yetirdi.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, tarixi şəxsiyyətlərimizin hər biri haqqında qürur hissi ilə danışmaq olar. Partiya rəhbərinin sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin tarixi şəxsiyyətlərimiz arasında öz xüsusi yeri var:** ”Onun istər Sovetlər dönəmində gördüyü işlər, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi müddətdə ölkəmizə qarşı xarici təzyiqlərin dəf edilməsi, dövlətçiliyimizin möhkəmləndirilməsi, beynəlxalq əlaqələrimizin genişləndirilməsi, iqtisadi böhranın aradan qaldırılması istiqamətində atdığı qətiyyətli addımlar barədə əlbəttə, çox danışmaq olar. Lakin iştirakçısı olduğum bütün tədbirlərdə, müzakirələrdə Heydər Əliyevdən söhbət düşəndə, mən onu, onun şəxsiyyətini, tarixdəki rolunu, missiyasını ilk növbədə milli həmrəylik və dövlətçilik nöqteyi-nəzərindən qiymətləndirməyə çalışıram.

Bəli, Heydər Əliyev seçilmiş insan, missiyalı lider idi. O, böyük bir missiyanın haqqını vermək üçün doğulmuşdu. Söhbət müasir tariximizin ən kritik anlarından birində xalqımızın birliyini, Azərbaycan dövlətinin bütövlüyünü qətiyyət və əzmlə qorumaq missiyasından gedir. Ən kritik anlar deyərkən, təbii ki, 1990-cı ilin əvvəllərini nəzərdə tuturam. Bu gün siyasətdə olan bir çox insanlar həmin vaxt Azərbaycanın ictimai-siyasi həyatında yaşanan təlatümləri, baş verən siyasi qarşıdurmaları xarici təhdidləri yəqin ki, yaxşı xatırlayır. Yenicə müstəqillik yoluna qədəm qoymuş Azərbaycan qardaş qırğınına, vətəndaş müharibəsinə doğru sürüklənməkdə idi. Ölkəmiz separatçı bölgələrə parçalanmaq, dövlətçiliyini itirmək təhlükəsinin bir addımlığında idi. Torpaqlarımızın Ermənistan tərəfindən işğalına start verilmişdi. Lakin daxildə hökm sürən siyasi hərc-mərclik Ermənistanın işğalçılıq siyasətinin qarşısını almağımıza heç cürə imkan vermirdi. Bir sözlə, həmin vaxt ölkəmiz elə bir çıxılmaz duruma düşmüşdü ki, nə AXC-Müsavat hakimiyyəti ölkəni bu durumdan çıxarmaq iqtidarında idi, nə də ki hakimiyyətə gəlmək istəyən digər siyasi qüvvələrin siyasi böhrana, iqtisadi tənəzzülə, cəbhədəki hərbi uğursuzluqlara son qoymaq imkanı, milli birliyimizi qorumaq üçün potensialı vardı. Azərbaycan təkcə siyasi, iqtisadi, hərbi böhranla üzüzə deyildi. Biz həmin vaxt sözün həqiqi mənasında lidersizlik böhranı ilə də üzləşmişdik. Hamımız ümummilli liderlik yükünü ləyaqətlə, şərəflə daşıya biləcək böyük LİDER axtarışında idik. Torpaqlarımızın və müstəqilliyimizin itirilməsi faciəsinin bir addımlığında dayandığımız belə bir acınacaqlı durumda əsl siyasi liderə ehtiyacımız vardı. Və bu rolu, bu missiyanı yalnız Heydər Əliyev yerinə yetirə bilərdi. Bu həqiqəti hamı dərk edirdi. Ona görə də xalqımız Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi”.

**Ə.Hüseynov qeyd edib ki, Heydər Əliyevin böyük siyasətə dönüşü möhtəşəm idi:** ”O, öz missiyasını bütün məsuliyyəti ilə dərk edirdi. Birdən-birə bu qədər ağır problemlərlə üzləşən gənc Azərbaycan dövlətini xilas etmək üçün əsl fədakarlıq tələb olunurdu. Heydər Əliyev bu fədakarlığa hazır idi. O, həm daxildəki siyasi təxribatçılar və separatçı qüvvələrlə, həm də xarici güclərlə qeyri-bərabər şəraitdə, ağır şərtlər altında mübarizə apararaq Azərbaycanı bölünməkdən, parçalanmaqdan, işğal olunmaqdan xilas etdi. Bu, onun Azərbaycan xalqına ən böyük xidməti idi. Təsadüfi deyil ki, hətta opponentlər də Heydər Əliyevin hakimiyyətdə olduğu illəri Azərbaycanın xilas və dirçəliş dövrü kimi qiymətləndirir. Bu da onun danılmaz uğurudur. Müasir Azərbaycan dövlətini yenidən quran Heydər Əliyev bu uğura məhz milli birlik, həmrəylik ideyalarına söykənərək imza atdı. Tariximizin ən böhranlı məqamında Heydər Əliyevin bütün azərbaycanlıları bir yumruq kimi birləşdirə bilməsi həqiqətən də fenomenal hadisə idi. Xalqımız qədirbilən xalqdır. Biz onun xidmətlərini heç vaxt unutmuruq”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Epidemiya kimi sürətlə yayılır

## Narkoman avtobus sürücülərinin aşkarlanması bu sahədə vəziyyətin getdikcə pisləşməsindən xəbər verir




*"Əməliyyatlar yalnız narkotik ticarəti ilə məşğul olan şəxslərə qarşı aparılır. Amma narkotik istifadəçilərinə qarşı müxtəlif çəkindirici cəza metodları tətbiq etmək daha məqsədəuyğun olardı"*

**Narkotik maddənin təsiri altında avtobus idarə edən sürücü bu günlərdə ölkə ictimaiyyətinin gündəminə çevrilib.**

Sükan arxasında telefonla danışan, kiminləsə söhbət edən, sərnişinlərlə əlbəyaxa davaya çıxaraq təhlükə saçan avtobus sürücülərinə tez-tez rast gəlinir. Sürücünün narkotik maddə qəbul edib xəttə çıxması isə daha acınacaqlıdır. Hər gün yüzlərlə insan daşıyan, uşaqlı, böyüklü hər kəsin canını həvalə etdiyi avtobus sürücüsünün narkotik qəbul etməsi və onun sürücü kimi işə alınması ictimaiyyətdə ən çox tənqid edilən məsələdir. Görülən profilaktik tədbirlərə baxmayaraq, hələ də ölkədə narkoman sürücülər sükan arxasında maşın idarə etməkdə davam edirlər.

Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsinin Ekoloji Nəzarət Bölüyünün əməkdaşları tərəfindən görülən tədbirlər nəticəsində narkotik maddənin təsiri altında avtobus idarə edən Həzrətquliyev Kənan Aftandil oğlunun qanunazidd əməllərinin qarşısı alınıb. ”İSUZU” markalı, 90-TV-781 dövlət qeydiyyat nişanlı avtobusun sürücüsü Kənan Həzrətquliyev Ekoloji Nəzarət üzrə YPX Bölüyünün əməkdaşları tərəfindən saxlanılıb. Sənədlərin yoxlanılması zamanı sürücünün hərəkətləri şübhə doğurduğundan onun tibbi müayinədən keçməsi təmin olunub və müayinə zamanı K.Həzrətquliyevin narkotik maddə qəbul etməsi müəyyən edilib.

Qeyd edək ki, son illərdə ölkəmizdə narkomaniyaya qarşı dövlət səviyyəsində geniş mübarizə aparılır və cəmiyyət arasında gənclərin bu zərərli vərdişlərə meyillilik hallarının qarşısının alınması istiqamətində işlər görülür. Buna rəğmən narkomaniya ölkəmiz üçün əsl ”baş ağrısı”na çevrilib. Epidemiya kimi sürətlə yayılır. Valideynlər övladlarını bu bəladan uzaq tutmağa çalışdıqca narkotacirlər uşaqları, gəncləri zəhərləməyin fərqli yollarını axtarıb tapırlar.

**Narkomaniya üzrə ekspert Emil Maqalov ”Şərq”ə açıqlamasında deyib ki, narkotik vasitələrdən istifadə edənlər digər yerlərdə iş tapmadıqları və ya sənətləri olmadığı üçün sürücülük vəsiqəsi alıb məcburi sərnişindaşıma ilə məşğul olurlar. Bu səbəbdən də narkotik istifadə edib, ictimai nəqliyyata çıxan sürücülərin sayı artmağa başlayıb. Onun sözlərinə görə, hazırda sərnişindaşımada narkotestlərin olmaması bu cür halların yaranmasına əlverişli imkan yaradır. Ekspert buna çıxış yolu kimi həmin şəhər və rayonların nəqliyyat departamenti tərəfindən nəticəsi tez bilinən gündəlik sürücülərin testdən keçirilməsinin təmin edilməsini görür:** ”Hər gün mütləq test götürülməlidir, çünki narkotik vasitələr müxtəlif zaman çərçivəsində - 24 saat, 1 həftə və 1 ay qala bilir. Narkotik vasitə qəbul etmiş sürücülərin aşkarlanması, tapılması, cəzalandırılması və nəqliyyat vasitəsindən onların istifadə etməsinin qarşısının alınması birbaşa olaraq Dövlət Yol Polisinin səlahiyyətində qalır. Hansısa səbəbdən polis sürücünü saxladıqda mütləq şəkildə onları 5 dəqiqəlik testlərdən keçirir. Yaxşı olar ki, sərnişindaşımaya cavabdeh olanlar da gündəlik olaraq test yoxlaması keçirsinlər. O zaman narkotika istifadəçiləri biləcək ki, testlər var və məcburi bundan istifadə etməyəcək”.

Sürücülərin narkotik vasitə istifadə edərək nəqliyyatda çalışmasının ciddi problem olduğunu vurğulayan ekspert hesab edir ki, məsələnin həllində bir qədər ehtiyatlı davranmaq lazımdır: ”Çünki bu sahədə çalışaraq ailəsinə çörək qazanan, başqa işi olmayan vətəndaşlarımız var. Bu iş elə görülməlidir ki, onlara zərər gəlməsin. Yəni təklif etdiyim testləşdirmə də problemin həlli deyil. Bu yolla narkoman sürücüləri aşkar etmək mümkün olacaq. Amma bu zaman həmin sürücülər üçün sosial problem yaranacaq. Bir çoxunun ağrıları olduğuna görə dayanmır və bunu etməyə məcbur olur. Bu zaman onları test etdikdə həm də işsiz qalacaqlar. Onları narkodispanserlərə yerləşdirmək lazımdır. Bizdə isə müalicə müəssisələrində yerlər məhduddur. Uzun sözün qısası, ”Yuxarı baxırsan bığ, aşağı baxırsan saqqal” deyildiyi yerdəyik.

Ölkədə narkotik istifadəçilərinin sayının artmasının fonunda bu bəladan xilas olmaq üçün müalicə müəssisələrinin sayı artırılmalıdır. Hazırda maliyyə və narkoloq çatışmazlığından bu məsələ uzun vaxt apara bilər. Ona görə də əlimizdə olan resursa, Səhiyyə Nazirliyinin ”Zərərin azaldılması” layihəsinə təkan vermək lazımdır.

Bakıda 5 min narkotik istifadəçisi varsa, yer sayı 400 nəfərdir. Sumqayıtda min nəfər varsa, 28 nəfərlik yer var. Bu dispanserlərdən beş-altı böyük şəhərdə var, digər regionlarda isə ümumiyyətlə narkoloji dispanser yoxdur. Deyək ki, narkomanları tapıb dispanserə yerləşdiririk, amma sonrakı mərhələ üçün reabilitasiya mərkəzi yoxdur. Özəl sektor pulludur, hər insanın da ona imkanı yoxdur”.

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı da ”Şərq”ə açıqlamasında bu sahədə vəziyyətin getdikcə pisləşməsindən danışıb:** ”Statistika və real müşahidələrimiz onu göstərir ki, problemin nəinki kökünü kəsmək, heç artımın qarşısını almaq mümkün deyil. Narkomaniyaya qarşı dövlət tərəfindən mübarizə aparılır. Son illər DİN-in narkomaniyaya qarşı həyata keçirdiyi əməliyyatlar nəticəsində yüzlərlə narkotacir ifşa olunaraq məsuliyyətə cəlb edilib. Minlərlə ton narkotik vasitələri müsadirə olunaraq məhv edilib. Amma bunların heç biri ölkədə narkomaniyanın azalması üçün yetərli olmayıb. Deməli ki, bu problemi doğuran səbəbləri aradan qaldırmaq lazımdır. DİN-in əməliyyatları yalnız narkotik ticarəti ilə məşğul olan şəxslərə qarşı aparılır. Avropa Şurasının tələbinə əsasən, narkotik istifadəçiləri üçün heç bir hüquqi cəza müəyyən edilmir. Amma narkotik istifadəçilərinə qarşı müxtəlif çəkindirici cəza metodları tətbiq etmək daha məqsədəuyğun olardı. Ən azından narkotik istifadəçilərinin bir hissəsi hansısa formada cəza alacaqlarından ehtiyat edib bu vərdişlərindən imtina edərlər”.

*E.Bayramlının sözlərinə görə, narkomaniyanın cəmiyyətdə tüğyan etməsi, gənclər arasında aludəçilərin sayının artmasına işsizlik və avaralıq, uşaq və yeniyetmələrin asudə vaxtının düzgün təşkil olunmaması kimi sosial amillər zəmin yaradır:* ”Uşaq və gənclərin fiziki və mədəni inkişafa yönəlməsi üçün vacib olan idman və yaradıcılıq mərkəzləri çox bahalıdır. Valideynlər uşaqlarını bu mərkəzlərə yazdıra bilmədiyi üçün ”tin”də böyüyən kütlə formalaşır. Hesab edirəm ki, burada maarifləndirmənin heç bir təsiri, effekti ola bilməz. Sadəcə, problem yaradan səbəblər aradan qaldırılmalıdır. Gənclər üçün müxtəlif dərnəklər, texniki yaradıcılıq mərkəzləri, peşə kursları, pulsuz idman və musiqi kursları olmalı, gənclər üçün xüsusi dövlət proqramı təsdiq edilməli və bu məsələlər həll olunmalıdır. Əks halda milli genefondumuz məhv olacaq. Dövlət, ictimai təşkilatlar, media bu mübarizədə yaxından iştirak etməli və mütəşəkkil tədbirlər həyata keçirilməlidir. Narkomaniyanın artması paralel olaraq QİÇS xəstəliklərinə yoluxma sayının da artmasına zəmin yaradır”.

**Şəymən Bayramova**



# Ölkə milyardlar itirir

AZAL-da əsaslı yoxlamalar aparılmalıdır

***"Eyni məsafəyə Gürcüstandan 50 avroya üça bilən insan, həmin məsafəyə Bakıdan 500 avroya uçur"***

**”Ümumiyyətlə, AZAL dünyada ən baha biletlər satan aviaşirkət kimi tanınıb. O, pandemiya dövrü və ondan sonrakı zamanda astronomik qiymətlərlə ad çıxarıb”.**

**Bunu ”Şərq”ə açıqlamasında iqtisadçı-ekspert Elçin Bayramlı deyib.**

Ekspert qeyd edib ki, belə bir iqtisadi əsaslandırılmamış qiymət siyasəti ola bilməz: ”Çünki dünyada aviasiya üzrə sərnişindaşıma sahəsində qiymət standartları var. Bizdə isə qiymət standartlardan dəfələrlə artıqdır. İnsanlar bunu artıq mətbuatda və parlamentdə işıqlandırmaqdan yorulub. Amma AZAL heç bir reaksiya vermir. Hətta əksinə, fürsətdən istifadə edərək sərnişinləri soymaq siyasəti yeridir. Yəni ən yaxın məsafələrə astronomik qiymətlər tədbiq edərək, monopolist şirkət kimi milyardlar qazanmaq istəyir. Ümumiyyətlə isə bu şirkət faktiki olaraq dövlətə zərər vurur. Ona görə də məsələnin həlli üçün iki istiqamətdə tədbirlər həyata keçirmək lazımdır. Birincisi, aviasiya bazarında rəqabəti artırmaq üçün çox sayda şirkətlərə şərait yardılmalıdır. İkinci tərəfdən isə quru sərhədlər açılmalıdır. Sərhədlərin bağlı olması AZAL-a manipulyasiya etməyə imkan yaradır”.

**E.Bayramlının sözlərinə görə, alternativ olmadığından sərnişinlər səyahət etmək üçün normadan 5-10 dəfə artıq pul ödəməyə məcbur qalırlar:** ”Bu isə ölkədə həm sosial narazılıqlar, həm də iqtisadi problemlər yaradır. Digər tərəfdən bizim vətəndaşlar uzaq məsafəli ölkələrə səyahət üçün yaxın dövlətlərə gedərək oradan uçmağa üstünlük verirlər. Bu isə dünyanın heç bir yerində müşahidə olunmayıb və tamamilə biabırçılıqdır. Yəni eyni məsafəyə Gürcüstandan 50 avroya üça bilən insan, həmin məsafəyə Bakıdan 500 avroya uçur. Bu baxımdan da sözügedən şirkətdə əsaslı yoxlamalar aparılmalı və rəhbərliyi cəzalandırılmalıdır. Çünki onların qiymət siyasətinə görə ölkəmiz milyardlarla pul itirir”.

**Nihat Müzəffər**



# Tikinti materialları bahalaşmaqda davam edəcək

Elə məhsullar var ki, qiyməti iki dəfədən çox artıb

**Son günlər tikinti materialları bazarında ciddi bahalaşma müşahidə edilir. Bahalaşma tikinti işlərinin xərcinə də təsir göstərir.**

Ekspertlər hesab edir ki, tikinti materiallarına olan tələbin daha çox yerli istehsal hesabına ödənilməsinə nail olmalıyıq ki, dünya bazarında qiymət artımları baş verən zaman Azərbaycanın istehlak bazarına ciddi təsir göstərməsin.

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə hesab edir ki, tikinti materiallarının qiymətinin bahalaşması digər sahələrdəki bahalaşma ilə birbaşa əlaqəlidir:** ”Yanacağın qiyməti qalxanda yük maşınlarının xərci də artır və qiymətə təsir edir. Bununla yanaşı, tikinti materialı istehsal edən zavodlar var. Bu zavodlar qaz və ya işıqla işləyir. Bahalaşma olanda zavodun satdığı məhsulların qiymətində də artımın olması qaçılmazdır. Çünki ortada qoyulan xərc və götürülən məbləğ var. Digər xərclərin qarşılanması üçün balans qorunmalıdır. Ümumilikdə son bir il ərzində tikinti materiallarının qiyməti getdikcə artıb və bu tendensiya davam etməkdədir. Elə məhsullar var ki, qiyməti iki dəfədən çox artıb”.

*Azərbaycana idxal olunan tikinti materiallarının əsasən 2020-ci ildən bahalaşmağa başladığını xatırladan E.Fərzəliyev deyib ki, pandemiya ilə əlaqədar bu dövrdə dövlət sərhədləri bağlandı, daşınma və logistika isə çətinləşdi:* ”Azərbaycanda istifadə olunan materialların böyük hissəsi Rusiyadan, digər qismi isə Ukraynadan gətirilir. Bunlar əsasən taxta-şalban, dəmir məmulatları, metal konstruksiyalar, alüminium və digər məhsullardır. Rusiya-Ukrayna müharibəsi başlayandan bahalaşma daha da sürətləndi”.

Son illər Azərbaycana tikinti materiallarının idxalının xeyli artdığına diqqət çəkən ekspert hesab edir ki, bahalaşma həm də işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və inşaat işləri ilə bağlıdır: ”Ölkəyə daxil olan materialların çoxu bu bölgəyə daşınır, nəticədə qiymətlər artır. Düşünürəm ki, bahalaşma Rusiya-Ukrayna müharibəsi başa çatana və quru sərhədlərimiz açılana qədər davam edəcək. Onu da nəzərə alaq ki, azad olunmuş ərazilərdə 140 adda təbii sərvətimiz var və bunun bir çoxu tikinti materalları üçün yararlıdır. Mərmər, qranit, filiz, lay daşları və s. Əgər ölkədə istehsal genişlənsə, mədənlər işə düşsə, ölkəmiz tikinti materialları istehsalçısına çevriləcək. Bu isə daxili istehsalın artmasına, qiymətlərin aşağı düşməsinə səbəb olacaq”.

**Ekspertin sözlərinə görə, bu artım tikilməkdə olan binalarda mənzillərin satış qiymətlərini də artırır. Tikinti materialları və kommunal ödənişlərin qiymət artımı daha çox icarəyə verilən kafe, restoran və digər xidmət sahələrinə aid obyektlərin fəaliyyətinə mənfi təsir göstərir:** ”Bu obyektlərdə əsasən işıq və qazdan istifadə olunur. Sözügedən obyektlər qeyri-yaşayış hesab olunur və onlar üçün qiymətlərin daha çox baha olması fonunda ziyana düşməmək üçün xidmət haqqına artım etməyə məcbur olurlar. Təəssüf ki, yaxın gələcəkdə bir çox sahələrdə qiymət artımı baş verəcək”.

**Şəymən Bayramova**

# Yaşın nə fərqi var...

23 yaşlı qızın 50 yaşında kişiyə ərə getməsi hay-küy yaratdı

*(Davamı səh: 8--də)*



*Mehriban Zeynalova: "Bizim kiminsə şəxsi işinə, taleyinə qarışmaq hüququmuz yoxdur"*

**Gənc qızla ailə quran 50 yaşlı şəxs isə Gədəbəyin Əmiraslanlı (keçmiş Şəkərbəyli) kəndinin sakinidir.**

O, bu kənddə qeydiyyatda olsa da, başqa ünvanda daimi yaşayır. O da məlum olub ki, yeni evlənən kişi daha əvvəl bir neçə dəfə ailəli olub. Qeyd edək ki, məlum hadisə barədə sosial şəbəkələrdə müxtəlif fikirlər yazılıb. Videoda görünən evin təmirsiz halı bu evlilikdə iqtisadi amilin rol oynadığı təəssüratı yaradıb. Fikir bildirənlər ”evin halından məlumdu ki, bu evlilik pula görədir. Yeznə evi təmir etdirəcək. Qızı da maddi cəhətdən təmin edəcək” kimi ifadələrə yer veriblər.

**”Təmiz dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova ”Şərq”ə açıqlamasında baş vermiş hadisənin problem kimi qabardılmasının əleyhinə olduğunu dedi:**

- Bu hadisəni müzakirə predmeti etmək, problemə çevirmək lazım deyil. Əgər qızın yaşı 17-dən az olsaydı, hüquq-mühafizə orqanlarının məsələyə müdaxiləsi lazım gələcəkdi. Amma qızın 23 yaşının olduğu bildirilir. Deməli, bu şəxs yetkinlik yaşındadır, şüurlu adamdır və özü qərar qəbul etmək iqtidarındadır. Kənar təsirlər varmı, hansı səbəbdən bu evliliyi qəbul edib, bu artıq başqa mövzudur. Və hesab edirəm ki, kiminsə ixtiyarı yoxdur, bir başqasının şəxsi işinə qarışsın. Əgər şikayət olsaydı, hansısa formada məlumat çatdırılsaydı ki, qızı bu evliliyə təhrik edənlər var, öz iradəsi xaricində evləndirirlər, ya da qız özü narazılığını ifadə etmiş olsaydı, hüquq-mühafizə orqanları da, vətəndaş cəmiyyəti institutları da fəaliyyətə keçərdi. Lakin indiki halda heç bir narazılıq yoxdur və bizim kiminsə şəxsi işinə, taleyinə qarışmaq hüququmuz yoxdur.

**M.Zeynalova qeyd etdi ki, məlum evlilik hadisəsində müxtəlif amillər, səbəblər ola bilər:**

- Bəlkə ailənin iqtisadi durumu ağırdır, qızlarını evləndirməklə iqtisadi problemləri həll etmək istəyirlər. Ortada borc asılılığı da ola bilər. Bəlkə xanım da əvvəlcə evli olub, evliliyi pozulub, indi yenidən ailə qurur. Hər bir bölgənin xüsusiyyətlərini, ailədə mövcud olan qaydaları da nəzərə almalıyıq. Bunlar hamısı ehtimallardır. Belə də ki, tarixdə aralarında böyük yaş fərqi olduğu halda ailə quran cütlüklər az olmayıb. Niyə bizə bu evlilik qəribə görünməlidir?! Bəlkə o kişi xanımı inandıra bilib, özünə etibar qazanıb? Yenə deyirəm, əgər yetkinlik yaşında çatmamış qız olsaydı, müdaxilə haqqımız olardı. İndiki halda isə başqasının şəxsi işinə qarışmaq nə etik cəhətdən düzgündür, nə də hüquqi baxımdan.

**Məlahət Rzayeva**



# Professordan xəbərdarlıq

Türkiyədə donuz qripinə yoluxanlar koviddən çoxdur

**Hazırda xəstələr qrupunda donuz qripi və onun alt tiplərində əhəmiyyətli artım müşahidə olunur, COVİD-19-dan daha çoxdur.**

“Medicina” xəbər verir ki, Pprof. Dr. Alper Şener donuz qripinə yoluxmaların artdığını bildirib.

”Əsasən laboratoriya müayinələrində boğazdan alınan nümunə ilə onları müəyyənləşdirmək mümkündür. Qrip infeksiyalarında istifadə etdiyimiz antiviral agent və COVİD-19-da istifadə etdiyimiz antiviral agent bir-birindən fərqlidir, odur ki, onları ayırmaq vacibdir. Antiviral müalicə ilə virusun aşağı tənəffüs yollarına düşməsinin qarşısını alırıq. Qrip deyib keçməyin, o, COVİD-19 kimi yoluxucu və ölümcül ola bilər.

Ümumiyyətlə hər il qış aylarında qripin ştammlarının və alt növlərinin artdığını görürük. Hazırda xəstələr qrupunda donuz qripi və onun alt tiplərində əhəmiyyətli artım müşahidə olunur, COVİD-19-dan daha çoxdur. Qripə yüngül yanaşmaq olmaz. Xüsusilə 65 yaşdan yuxarı xəstə qrupunun xəstəxanaya yerləşdirilməsinə ehtiyac ola bilər. Bəziləri hətta süni nəfəs aparatına qoşulmalı ola bilər. Ölümcül olma təhlükəsi var, lakin COVİD-19 qədər riskli deyil. Hər halda donuz qripinin bu yaş qrupunda xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamaq lazımdır. Donuz qripində simptomlar COVİD-19-da olduğu kimi geniş yayılmış əzələ ağrısı və oynaq ağrısı ilə başlayır. Tənəffüs simptomları ola bilər. Quru öskürək, burun axması, zəiflik meydana gəlir. Donuz qripi ishala, dadbilmə və iybilmə duyumunun itməsinə səbəb olmsa da, unutmaq olmaz ki, uzun müddət quş və donuz qripi ilə qarşılaşmadığımız üçün orqanizm onu unudub. Odur ki, yenidən iltihablı reaksiya baş verir”, - həkim bildirib.

**COVİD-19 infeksiyalarında dadbilmə və iybilmə qabiliyyətinin, eyni zamanda ishal əlamətlərinin olduğunu bildirən professor sözlərinə belə davam edib:** ”Bunlar varsa, COVİD-19 ola biləcəyini düşünürük. Bundan başqa, qrip və COVİD-19-u yalnız simptomlarla ayırmaq mümkün deyil. Boğaz ağrısı, quru öskürək kimi simptomlar hər ikisində ümumidir. Yeganə fərq, əslində ishalın olmasıdır. Xüsusilə dadbilmə və iybilmə itibsə varsa, COVİD-19 olma riski yüksəkdir”.

# Duz siqaret və narkotika kimi ziyanlıdır

Bu qida ürəyi və damarları yükləyir, ölümə səbəb olur

*(Davamı səh: 8--də)*



***"Duzlu bir şey yedikdən sonra çoxlu su içməyə can atmağımız ruhumuzun duz adlı qəribə maddəyə üsyanıdır, dərhal "zəhərindən" xilas olmaq istəyir"***

**Amerikalı mütəxəssislər araşdırmalar zamanı müəyyən ediblər ki, duzdan çox istifadə etmək insan beyni üçün də zərərlidir. Duzdan ifrat dərəcədə istifadə nəticəsində beyinə daha az oksigen gedir və funksiyalar zəifləyir.**

**Xalq təbabəti üzrə mütəxəssis Təbibxan Bəydəmir isə deyib ki, duz insanlarda asılılıq yaradıb. Onun sözlərinə görə, heç kim duzun insan orqanizminə verdiyi zərərlərin fərqində deyil. Duzsuz hansısa bir qidanı yeyə bilməyəcəklərini iddia edirlər:** ”Halbuki yer üzündə duzun nə olduğunu bilməyən çoxlu xalqlar var. Duz bizə siqaret və narkotika təsiri göstərir. Duz bir çox heyvanlar üçün də zəhərlidir. Xüsusilə ev quşları üçün. Təsəvvür edin ki, donuz kimi kobud heyvan çox duz yeməkdən ölür. Duz qeyri-üzvi olduğundan insan orqanizmindəki toxumalar və hüceyrələr duzu tanımır.

Duzlu bir şey yedikdən sonra çoxlu su içməyə can atmağımız ruhumuzun duz adlı qəribə maddəyə üsyanıdır, dərhal ”zəhərindən” xilas olmaq istəyir. Böyrəklər vasitəsilə duzu xaric edə bilməsi üçün su tələb edir. O zərif böyrəklərin vəziyyətini təsəvvür edə bilərsinizmi? Bədənimizdə duzdan ən çox zədələnən böyrəklərimizdir. İnsan böyrəklərinin bədəndən çıxara biləcəyi həcmdən artıq duz qəbul etsə, bədənimizdə nə baş verir? Qəbul edilən duzlar ayaqdan başlayaraq bədəndə, oynaqlarda və dəri altında yerləşir. Beləliklə, bədən tədricən deformasiyaya uğrayır. Bu zəhərdən xilas olmaq üçün orqanizm avtomatik olaraq ora su göndərir, onunla duzdan xilas olmaq istəyir.

Nəticədə bədənin bu hissələrində su duzla birləşdikdə əvvəlcə maye olur. Günlər keçdikcə bu maye bərkiyir və oynaqlarda sümüklər arasındakı maye ”sement”ə çevrilir. Beləliklə, ağrı və ağrılar yaranır, insanlar bu bəlaya bir ad axtarır və tapırlar - ”Revmatizm”.

**Həkimin sözlərinə görə, revmatizm heç bir dərmanla müalicə edilmir və insanlar ömrünün sonuna qədər bu xəstəliyə qarşı keyidici dərmanlardan istifadə etməyə davam edir:** ”Duz ürək üçün də təhlükəlidir. Duz ürəyin ritmini və qan təzyiqini pozur. Duz böyrəklərin fəaliyyətini çətinləşdirir və orqanizmdə mayeni saxlayır ki, bu da ödemlərə və təzyiqin qalxmasına səbəb olur. Təbiətin yaratdığı bütün nemətlərdə insan orqanizminə lazım olan qədər duz var. Duz əvəzinə turp, sumax, baş soğan, yaşıl soğan, keşniş-şüyüd və pomidor kimi tərəvəzlərdən istifadə etməyimiz kifayət edir. Bişirilən xörəyə isə sumax və razyana, keşniş toxumu tökmək lazımdır”.

**Şəymən**

# "Nar" mağazalarını yeniləməyə davam edir

**”Nar” paytaxtda və regionlarda yerləşən daha 3 mağazasını yeni konseptə uyğunlaşdırıb. Müasir tələblərə uyğun olaraq təqdim edilən ”Nar” mağazaları şəhər və ətraf ərazilərdə yaşayan müştərilərin rahatlığı və onlara göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədini daşıyır.**




Mağazalar Bakı şəhəri, Bakıxanov qəsəbəsi, M.Fətəliyev 40, Yevlax şəhəri, Nizami Gəncəvi prospekti və Beyləqan şəhəri, Magistral küçəsində yerləşir. Mağazalarda ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Həmçinin mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir.

*Qeyd edək ki, ”Nar” müştəri yönümlülük dəyərlərinə sadiq qalaraq, bütün ölkə boyu eksklüziv diler və xidmət mərkəzlərini yeni konseptdə təqdim etməkdədir. Mobil operator həmçinin ilin sonuna kimi 13 mağazasını tamamilə yeni konseptə uyğunlaşdırmaqla ziyarətçilərin müasir üslubda məlumat və xidmət almasını təmin edəcək. Mağazaların ünvanı və xidmətlər haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar.*

**Elan**

Quliyev Vüsal Elizbar oğlunun adına verilmiş vergi ödəyicisinin nəzarət kassa aparatları - Orion - 101 F 0016974 20121128 və Orion - 101 F 001074320140612 itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəqliyyat təlim, tədris mərkəzi tərəfindən Cabbarlı Savalan Güləşir oğluna verilmiş (B.C dərəcəli) sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3638



## Yaşın nə fərqi var...

23 yaşlı qızın 50 yaşında kişiyə ərə getməsi hay-küy yaratdı

**Mehriban Zeynalova: "Bizim kiminsə şəxsi işinə, taleyinə qarışmaq hüququmuz yoxdur"**

**Gədəbəydə 17 yaşlı qızın 50 yaşlı kişi ilə evlənməsi barədə görüntülər yayılıb.**

Bu barədə "Bakupost.az"a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupunun baş inspektoru polis kapitanı Eşqin Qasımov bildirib ki, məlumat araşdırılıb: "Araşdırma zamanı məlum olub ki, qızın 17 yaşı tamam olub. Onların nikaha daxil olması ilə bağlı hər hansı bir məlumat öz təsdiqini tapmayıb. Hazırda Polis şöbəsində araşdırmalar davam etdirilir" - Eşqin Qasımov deyib. Daha sonra araşdırmalar nəticəsində ailə quran qızın 17 deyil, 23 yaşının olması aydınlaşıb.

*(Davamı səh: 7-də)*

**Məlahət Rzayeva**

## Vətən borcu...

4 əkiz qardaş eyni yerdə xidmət edir



**Tokat İl Jandarma Komandanlığında 4 əkiz qardaşlar vətən borcunu yerinə yetirir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, əkizlər Fırat-Ferhat Aktaş, Mert-Efe Işık və Furkan-Enes Han və əkizləri Mehmet-Ali Ceylan Tokatda bir araya gəlib.

İl Jandarma Komandanlığını ziyarət edən Qubernator Numan Hatipoğlu və İl Jandarma komandiri polkovnik Bahri Bostancı günorta yeməyində əsgərlərlə görüşüb. Vali Numan Hatipoğlu, "Tokatda gənclərimiz əsgərliklərini yerinə yetirirlər. İnşallah, heç bir qəza və problem olmadan möhlətlərini başa vurub ana və atalarına qovuşarlar" deyib.

Əsgərlərdən Ferhat Aktaş, "Əkiz qardaşımla eyni yerdə xidmət etmək çox gözəl hissdir, bəzən elə olur ki, komandirlərimiz bizi qarışdırır", deyə sevincini bölüşüb.

**Turan**

## Hündürlüyü iki km. olan göydələn tikilməsi planlaşdırılır



**Səudiyyə Ərəbistanı Suveren Fondu (PIF) dünyada ən hündür binadan - BƏƏ-nin Dubay şəhərindəki 828 metrlik "Burj Khalifa"dan iki dəfədən çox hündür olan göydələn ucaltmaq niyyətindədir.**

**Oxu.az xəbər verir ki, bildirilib ki, PIF Ər-Riyadın şimalında sahəsi 18 kvadratkilometr, hündürlüyü 2 kilometr olan bina tikilməsi planını nəzərdən keçirir.**

**Podratçılar layihənin dəyərini təxminən 5 milyard dollar məbləğində qiymətləndirir. Hazırda bir milyon dollar ödənişlə tender keçirilir. Müsabiqədə iştirak edən podratçılar arasında Amerikanın bir neçə şirkətləri iştirak edir.**

**Məlumata görə, 2022-ci ilin noyabrında krallığın şimal-qərbində uzunluğu 120 km və hündürlüyü 490 metr olan "Mirror Line" meqapolisinin tikintisinə başlanılıb.**

**Hazırda ölkədə ən hündür bina Məkkədə Abrac əl-Beit binalar kompleksinin bir hissəsi olan Kral Saat Qülləsidir. Onun hündürlüyü 601 metrdir.**

## "İçimdeki yabancı"

Hande ilə Burak 6 ildən sonra yeni layihədə görünəcəklər



**Türkiyəli aktrisa Hande Erçelin yeni layihəsi bəlli olub.**

**Axşam.az xəbər verir ki, aktrisa "İçimdeki yabancı" serialında rol alacaq. Onun tərəf müqabili aktyor Burak Deniz olacaq.**

***Qeyd edək ki, Hande ilə Burak 6 il əvvəl "Aşk laftan anlamaz" layihəsində birgə rol alıb.***

## Bred Pitt ilk həyat yoldaşına rəğmən bu addımı atdı



**Hollivud ulduzu Bred Pitt "Plan B" adlı prodüser şirkətinin 60 faizini Fransız media şirkəti "Mediawan"a satıb.**

**Axşam.az xəbər verir ki, aktyor keçmiş həyat yoldaşı Cennifer Eniston və 2017-ci ildə vəfat edən keçmiş meneceri Bred Qrey ilə birlikdə qurduğu şirkətin satışından 300 milyon dollar əldə edib.**

**Belə ki, Cenniferlə boşandıqdan sonra şirkətin yeganə sahibi olan aktyor onun 60 faizini "Mediawan"ın adına keçirib.**

**Qeyd edək ki, bir müddət əvvəl Cennifer sözügedən şirkətə görə Pitti məhkəməyə verərək 100 milyon dollar tələb edib.**

**Onu da xatırladaq ki, bundan əvvəl Pitti keçmiş həyat yoldaşı Ancelina Coli də fransız şərab zavodu "Chateau Miraval"a görə məhkəməyə verərək 250 milyon dollar istəyirdi.**





# Şəhərdən qaçıb kəndə sığındılar

## Zibildən də pul qazanırlar

**Pandemiya həyat şərtlərini çox dəyişdi. Bəziləri üçün bu mərhələ qorxunc keçdisə də, bəziləri üçünsə yeni həyata başlamaq fürsəti oldu. "Şərq" şəhərdəki rahat yaşayışını kəndin gözəlliyinə, həm də çətinliklərinə dəyişən Kəsikbaş ailəsinin hekayəsini "Milliyet.com"a istinadən anladır. Kəndə köçmək qərarını əvvəlcə "1 həftədən artıq qala bilməyəcəyik", tərəddüdü ilə qarşılayan Kəsikbaş ailəsi artıq 1 ildir Amasyadadırlar.**

Kənd həyatının özəlliklərini anladan Özləm Kəsikbaş köç səbəbini belə anladıb: "İstanbuldakı evimizi kirayə verərək ailəmizin yanına qaçdıq desəm, daha doğru olar. Böyük şəhərlər işləmək və təhsil almaq baxımından avantajlı görünsə də, kəndə köçdükdən sonra bu avantajın əslində illərdir bizi necə yorduğunu və bezdirdiyini hiss etdik. "Niyə də burada yeni bir həyata başlamayaq", deyə özümüzə sual etdik və uşaqlarla birlikdə yeni evimizin sxemini çəkməyə başladıq. Və evimizi inşa etdik. Bir həftə dayana bilməyəcəyimizi düşündüyümüz kənddə 1 ildir çox rahat yaşayırıq. Artıq təbiətin və əllərimizlə inşa etdiyimiz evimizin dadını çıxarırıq". Maraqlı budur ki, Kəsikbaş ailəsi 150 min türk lirəsi ilə yola çıxıb. Evin sadə inşaatına 100 min, içiqarışıq bütün təmirə isə 200 min xərcləyiblər. Ö.Kəsikbaş evin təmirində ustalara bütün ailə üzvlərinin yardım etdiyini deyib: "Uşaqlar da evin tez təmir edilməsində maraqlıydılar deyə, hər işdə həm ustalara, həm də bizə yardım edirdilər. Evin divarlarını özüm boyadım. Tavan yüksək idi, hoppana-hoppana onu da özüm boyadım. Öz evimizi ərsəyə gətirirdik, bu, bizə böyük zövq verirdi". Ö.Kəsikbaş deyib ki, kənd həyatının ən çətin dövrü qış aylarıdır, xüsusən də soba qalamaq: "Amma bu bizi təbiətlə iç-içə yaşamaqdan usandırmır. Ən çox təəccüb etdiyim kənd sakinlərinin soba qalamaq dərdindən qışda şəhər mərkəzinə köçmələridir. Kəndlilərdə qəribə bir şəhər həsrəti var. İlk fürsətdəcə şəhərə qaçırlar. Toxumluq meyvə-tərəvəz də tapılmır artıq. Mövsümə görə hazır şitillər alırlar, hibrit məhsul yetişdirməyə can atırlar. Xalqımız üçün vacib olan təbii yaşam şərtləri, təəssüf ki, zaman-zaman beləcə yox olur". Ö.Kəsikbaş deyib ki, həyat yoldaşı təqaüddədir. Valideynlərindən öyrəndiyi üsullarla hazırda tarlada çalışır: "Mən isə toxum yetişdirərək təbii məhsul becərməyimizə yardım edirəm. Öz məhsulumuzu becərməyimiz, qışa ərzaq tədarük etməyimiz bazardan alış-verişimizi yarıya qədər azaldıb. Şəhərdə hər gün nə qədər zibil çıxırdı evdən. Şəhərdə zibil hesab edilənlər burada gəlir mənbəyidir. Məsələn, meyvə, yemək artıqlarını, heyvanlara yem olaraq veririk, yandırıla bilən şeyləri soba üçün saxlayırıq, yumurta qabıqlarını da gübrə olsun deyə torpağa basdırırıq. Anlayacağınız, zibil hesab edilənlərdən də pul qazanırıq". Ö.Kəsikbaş deyib ki, Günəşin doğuşu oyanıb, batışı ilə istirahət edirlər. Günəşli günlərdə bağçadan evə keçmək belə istəmirlər. Bağçada çalışmaq onlara çox xoşdur, bundan zövq alırlar. "Biz bura gələrkən, "heç İstanbulu buraxıb buralara gəlinirmi?" deyənlər də oldu, ancaq biz indi İstanbul haqqında düşünmək belə istəmirik", söyləyən Özləm Kəsikbaş şəhər həyatının stresindən xilas olduqlarına sevinir və deyir ki, "hər kəs bunu bacara bilər. Sadəcə, istək və çalışmaq lazımdır".



**Məlahət Rzayeva**



# 11 min illik tarixə sahib rəsm...

## "Bu, divarda qabartma üsuluyla həkk edilmiş 2 bəbir, öküz və 2 kişi fiqurudur"

**Türkiyənin Şanlıurfa bölgəsində arxeoloji qazıntılar zamanı Neolit dövrünə aid sənət əsəri aşkarlanıb. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, bölgədə aşkarlanmış sənət əsəri arxeologiya tarixində az rast gəlinən hallara aiddir.**



Tarixi tapıntı Şanlıurfanın Göbəklitəpə məhəlləsi yaxınlığında aşkar edilib. Bu, divarda qabartma üsuluyla həkk edilmiş 2 bəbir, öküz və 2 kişi fiqurudur. Əsərin 11 min illik tarixə malik olduğu bildirilir. Bu həmçinin indiyədək aşkarlanan divarda qabartma sənəti növündə ən qədim əsərlərdən biri hesab edilir. Əsərin özəlliyi divarda qabartma üsuluyla anlatmadır. Müəllif divardakı əsərlə nə isə anlatmağa çalışıb. Lakin onun məhz nəyi anlatmaq istədiyinə dair hazırda tarixçi və arxeoloqlar arasında fikir ayrılığı yaranıb. Divara həkk edilmiş əsərdə bəbirlərlə öküz arasında 2 insan - erkək fiquru fərqli formadadır. Biri əlində ilan tutub, digəri isə özünü qoruyan formada təsvir edilib. Elmi jurnal "Antiquity's Project Gallery"də yayımlanan araşdırmanın yazarı, İstanbul Universitetindən arxeoloq Eylem Özdoğan, "bu qabartmanı düzəldən topluluğa dair çox az bilgimiz var", - deyib. Alman arxeoloqlar da daş üzərində insanla bağlı bir hekayənin anladıldığı fikrindədir. Lakin əsər müəllifinin konkret nəyi nəzərdə tutduğuna dair ortaq rəy yoxdur. Araşdırmaçılar əsərin miladdan 9000 il öncə divara həkk edildiyi fikrindədir. Bu iddiaya səbəb əsərin Şanlıurfanın Sayburç antik şəhərində tapılması, ərazidə oturaq həyat tərzinə keçidin və əkinçiliyin inkişafının məhz göstərilən tarixdən başlamasıdır. Divarda qabartma və oyma sənəti də məhz bu dövrdə başlayıb. Qədim insanlar oturaq həyat tərzinə keçməklə həm də sənət əsərləri düzəltməyə başlayıblar. Şanlıurfanın Saybuş şəhərində antik abidələr ötən əsrdən üzə çıxarılır. Antik əsərlər böyük bir ərazini əhatə etdiyindən sonralar tikilmiş bir sıra müasir tikililərin sökülməsi planlaşdırılır.

**Məlahət**

## Duz siqaret və narkotika kimi ziyanlıdır

Bu qida ürəyi və damarları yükləyir, ölümə səbəb olur



**"Ölkəmizdə yüksək qan təzyiqinin əsas səbəbi duzdan çox istifadə edilməsidir". Bu sözləri kardioloq Firdovsi İbrahimov deyib.**

Qeyd edək ki, duzun insan üçün təhlükəli olması əvvəllər də elm adamları tərəfindən bildirilib. Həkimlər müəyyən ediblər ki, duzdan çox istifadə etmək ürək-damar xəstəliklərinin və yüksək qan təzyiqinin yaranmasına səbəb olur.

Mütəxəssislərin fikrincə, duz orqanizmdən mayenin çıxmasını ləngidir və mayeni orqanizmdə saxlayır. Nəticədə qanın maye hissəsinin miqdarı artır ki, bu da ürəyi və damarları yükləyir, ödəmlərə səbəb olur. Beləliklə, duzun həddindən artıq miqdarda qəbulu sağlamlıq üçün çox ziyanlıdır. İnsan öz çəkisinin hər kiloqramı üçün 1 qram düz istifadə etsə, bu onu öldürəcək.

*(Davamı səh: 7-də)*

***Şəymən***

## Qətərdəki bütün matçları izləyib

Ginnesin Rekordlar Kitabı rusiyalını qeydə almadı



**Ginnesin Rekordlar Kitabı Timur Juravelin 2022-ci il dünya çempionatının bütün oyunlarında iştirak etmə üzrə rekordunu nəzərə almayacaq.**

Oxu.az xəbər verir ki, turnirdən əvvəl şərhçinin Qətərdəki bütün matçlarda iştirak etmək və dünyada bunu bacaran ilk şəxs olmaq istəyi məlum olub. Onun rekorda çatmaq üçün cəmi dörd oyunu - iki yarımfinal, bürünc uğrunda görüş və final matçı qalıb.

"Təəssüf ki, tədqiqat qrupumuzun üzvləri ilə müraciətinizi diqqətlə nəzərdən keçirdikdən sonra biz cavab vermək məcburiyyətindəyik ki, təklifinizi bir rekord kimi qəbul edə bilmərik. Ginnesin Rekordlar Kitabı Rusiya və Belarusla bütün əlaqələrini qeyri-müəyyən müddətə dayandırıb. Ona görə də biz bu rekordu qəbul edə bilmərik", - deyə Kitabın rəsmi mesajında bildirilib.